Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 177 (8200) CÜMƏ, 16 avqust 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Dünyada yaşanan demoqrafik böhran fonunda Azərbaycan reallığı

## İlham ƏLİYEV: “Azərbaycanın uğurlu inkişafı əhalinin artımına bilavasitə təsir edən amildir və biz buna daim hazır olmalıyıq”

**Demoqrafik proseslər cəmiyyətin həyatının bütün sahələri ilə birbaşa bağlıdır. Bu bağlılıqsa sosial-iqtisadi hadisələrin demoqrafik proseslərə və demoqrafik proseslərin də sosial-iqtisadi hadisələrə təsirinin təzahürüdür.**

Yəni demoqrafik proseslər nəsillərin normal təkrar istehsalının ardıcıl surətdə həyata keçirilməsinin təmin edilməsinə yönəlmiş iqtisadi, sosial və hüquqi tədbirlər sistemindən, o cümlədən ailə-nikah, doğum, ölüm, təbii artım, insanların sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi, əhalinin məşğulluq və həyat səviyyəsinin yaxşılaşdırılması, ömrünün uzadılması, miqrasiyası və s.-dən ibarət olmaqla əhalinin bütün sosial-demoqrafik təbəqələrinin köklü mənafelərinə toxunur.

İctimai inkişafın müasir mərhələsində dünya əhalisinin sürətli artımı və demoqrafik proseslərdə baş verən dəyişikliklər ayrı-ayrı dövlətlərin ölkə daxilində və beynəlxalq səviyyədə həyata keçirdikləri siyasətə daha çox təsir göstərir. Həmin məsələlərlə bağlı bir çox problemlərə demoqrafik inkişaf kontekstində baxılması sözügedən problemlərin həllinə daha geniş bucaq altında nəzər salmaq və bu sahədə baş verə biləcək dəyişikliklərə baxış formalaşdırmaq imkanı yaradır.

Nəhayət, keçək əsas mətləbə. BMT-nin hesablamalarına görə, dünya əhalisinin sayı hər il orta hesabla 83 milyon nəfər artır (hazırda Yer kürəsində 7,7 milyarddan çox adam yaşayır). Bu hesabla 2030-cu ildə planetdə 8,6 milyard, 2050-ci ildə 9,8 milyard, 2100-cü ildə 11,2 milyard insanın yaşayacağı proqnozlaşdırılır. Təəssüf ki, bu artım vektoru sosial ədaləti təmin etmək tərəfə deyil, əks istiqamətə yönəlir. Bu gün dünyada müşahidə olunan əhalinin sürətli artımı ətraf mühitə təsirin kəskin yüksəlməsi və insanların ümumi tələbatının çoxalması ilə ifadə olunur ki, o da yoxsulluğa, iqtisadi geriliyə və ictimai sabitsizliyə gətirib çıxarır.

Digər problem əhalinin artım göstəricilərinin bərabər paylanmamasıdır. Artıq uzun zamandır artımın böyük əksəriyyəti Asiya, Afrika və Cənubi Amerika ölkələrinin payına düşür və həmin ölkələr o üzdən sosial, tibbi, təhsil və digər problemlərlə daha çox üzləşirlər. Lakin nə qədər təəccüblü görünsə də, bu bərabərsizlikdən inkişaf etmiş ölkələr də az əziyyət çəkmirlər. Həmin ölkələrdə əhalinin sayının azalması və yaşlaşma prosesinin sürətlənməsi əmək resurslarının və davamlı inkişafda mühüm rol oynayan gələcək nəsillərin sayının azalması ilə müşayiət olunur.

Belə vəziyyətin fəsadlarını əks etdirən faktlara nəzər salaq: son 40 ildə əməyin ÜDM-də payı inkişaf etmiş ölkələr üzrə 75 faizdən 65-ə düşmüşdür. Bu gün səmərəli sosial müdafiə ilə dünya əhalisinin cəmi 27 faizi əhatə olunur. Son 25 ildə beynəlxalq miqrasiya 50 faizdən çox artmışdır və hazırda 232 milyon nəfəri əhatə edir. Miqrantların çoxu məskunlaşdıqları ölkələrdə yüksək işsizlik və sosial müdafiəsizliklə, bəzən isə açıq ksenofobiya və rasizmlə üz-üzə qalırlar.

BMT-nin hesablamalarına əsasən, bu gün dünyada 800 milyona yaxın insan hələ də yoxsulluq həddindən aşağı səviyyədə yaşayır, 795 milyon insan isə aclıqdan əziyyət çəkir. Bunlardan əlavə, iqtisadi baxımdan ən yoxsul və ən varlı, habelə kənd və şəhər üzrə ev təsərrüfatları arasında böyük fərqlər mövcuddur. Kimin ağlına gələr ki, XXI əsrdə planetdə iqlim problemlərinin nəzərəçarpacaq dərəcədə ağırlaşması əhalinin artımı və aktiv fəaliyyəti ilə birbaşa bağlıdır. Bəli, məhz həm də əhali çoxluğu üzündən bəşəriyyət bu gün təbii fəlakətlər, resursların tükənməsi, xəstəliklər və pandemiyalar, ərzaq çatışmazlığı ilə üz-üzədir.

İndi keçək Azərbaycana. Öncə onu qeyd edək ki, ölkəmizdə əhalinin artımı, başqa sözlə desək, demoqrafik inkişafın təmin edilməsi güclü və dayanıqlı innovativ iqtisadiyyatın formalaşmasına, əmək məhsuldarlığının artmasına və bununla paralel əhalinin rifahının yüksəlməsinə yönəlmiş dövlət siyasətinin mühüm nailiyyətlərindəndir.

Ardı 4-cü səh.

# Rusiya Federasiyasının Prezidenti zati-aliləri cənab Vladimir Putinə

Hörmətli Vladimir Vladimiroviç!

Azərbaycan ilə Rusiya arasında dostluq münasibətlərinin inkişafı sahəsində fəaliyyətimə verdiyiniz yüksək qiymətə və Rusiya Federasiyasının ali fəxri mükafatına - “Dostluq” ordeninə görə Sizə səmimi-qəlbdən təşəkkür edirəm.

Ölkələrimiz arasında münasibətlər bir çox sahələri əhatə edir. Bu münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Azərbaycan və Rusiyanın dövlətlərarası əməkdaşlığı çoxəsrlik təməl üzərində təşəkkül tapıb. Azərbaycan və Rusiya öz münasibətlərini sülh, qarşılıqlı hörmət və mehriban qonşuluq əsasında qururlar. Bizim dostluğumuz və səmərəli tərəfdaşlığımız ölkələrimizin və xalqlarımızın maraqlarına tam cavab verir, regionda sülhə və sabitliyə xidmət edir.

Hörmətli Vladimir Vladimiroviç, fəxri mükafata görə Sizə bir daha səmimi-qəlbdən təşəkkür edirəm. Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, Rusiya xalqına firavanlıq, sülh və tərəqqi arzulayıram.

*Dərin hörmətlə,*

***Mehriban ƏLİYEVA,***
***Azərbaycan Respublikasının***
***Birinci vitse-prezidenti***

# Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması ATƏT-in Minsk qrupu həmsədrlərinə çağırış edib

Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanın işğal altında olan ərazilərinə səfər etməsi və səfər zamanı səsləndirdiyi təxribatçı bəyanata etiraz olaraq ATƏT-in Minsk qrupu həmsədrlərinə məktub ünvanlayıb.

Bu barədə AZƏRTAC-a “Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması” İctimai Birliyindən məlumat verilib.

Məktubda deyilir: “2019-cu il avqustun 5-də Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın işğal altında olan ərazilərinə səfər edib, “Pan-Ermənistan” oyunlarının açılışına qatılıb. Açılış “mərasim”ində Nikol Paşinyan təxribatçı bəyanatlar səsləndirərək Qarabağı Ermənistanın tərkib hissəsi adlandırıb. Ermənistanın baş naziri bununla da Azərbaycan ərazilərini ilhaq siyasəti yürütdüyünü təsdiq edir”. Məktubda qeyd edilir ki, Paşinyanın bu sayıqlamaları, əslində, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqların ruhuna zidd olmaqla yanaşı, öz ata-baba yurdlarından didərgin düşmüş yüz minlərlə azərbaycanlının hiddətinə səbəb olub.

Ardı 4-cü səh.

# Dövlət sərhədləri etibarlı qorunur

Azərbaycanın sərhəd mühafizəsinin keyfiyyətcə yenidən təşkili, formalaşdırılması və inkişafı müasir tariximizin yaradıcısı, müstəqil Azərbaycanın qurucusu, dövlətimizin müstəqilliyini əbədi və dönməz edən Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

16 avqust 2000-ci il tarixli sərəncamla əbədiyaşar lider şanlı yubileyimizin təməlini qoydu: milli sərhəd mühafizəsinin tarixini kökündən başladı. Məhz həmin tarixdən başlayaraq 18 avqust respublikamızda sərhədçilərin peşə bayramı günü kimi qeyd olunur. Bu qərar tarixi varislik prinsipini və milli sərhədçilik yaddaşını bərpa etdi. Milli maraqlarımızı daim önə çəkən böyük dövlət xadimi bununla Azərbaycanda dövlətçilik ənənələrinin dərin kökləri olduğunu bir daha göstərdi.

Azərbaycan sərhəd mühafizəsinin tarixi yalnız Azərbaycan sərhədçiləri üçün deyil, xalqımız və qədim ənənələrə malik dövlətçilik tariximiz üçün də əhəmiyyətlidir. Çünki dövlətlərin tarixi həm də onların sərhədlərinin tarixidir. Milli sərhəd mühafizəsini yaşadan və inkişaf etdirən Dövlət Sərhəd Xidməti keçmişinə ehtiram, gələcəyinə inam hissi ilə yanaşır, bugünündən qürur duyur. Bu hisslərin təməlində dövlət sərhədlərinin mühafizəsinə ən yüksək səviyyədə verilən önəm durur. Ulu Öndər Heydər Əliyev sərhədlərimizin toxunulmazlığının təmin edilməsini dövlətimizin mühüm vəzifəsi kimi dəyərləndirmiş, sərhəd mühafizəsinin qarşısında duran vəzifələri, sərhəd siyasətinin konseptual müddəalarını müəyyənləşdirmiş, milli sərhəd strategiyasını yaratmış, bu strategiyanın əməli surətdə həyata keçirilməsini təmin edən konkret fəaliyyət istiqamətlərini göstərmişdir.

Ardı 3-cü səh.

# Kənd təsərrüfatında rekord göstəricilərə nail olunur



Aparılan uğurlu islahatlar ölkənin ümumi inkişafını təmin edir. Belə ki, indi iqtisadiyyatımız yalnız neftdən asılı deyil. Qeyri-neft sektorunda məhsul istehsalı ildən-ilə artdığı üçün ixracatda da payı çoxalır. Bu da ölkənin tarazlı inkişafının təmin edilməsində mühüm faktora çevrilib.

Qeyri-neft sektorunda kənd təsərrüfatının çəkisi böyükdür. Bu sahə həm əhatə dairəsinə, həm də burada çalışanların sayına görə qeyri-neft sektorunda öndə gedir. Kənd təsərrüfatının inkişafı məhsul istehsalının artımını təmin etməklə yanaşı, ölkənin ərzaq təhlükəsizliyində önəmli rol oynayır. Yəni bu sektorda istehsal olunan məhsul əhalinin ərzağa olan tələbatını ödəyir, eyni zamanda ixrac edilərək ölkəyə valyuta gətirir. Digər tərəfdən isə, əhalinin məşğulluğuna böyük töhfə verir. Beləliklə, bu, həm iqtisadi, həm də sosial məsələlərin həllində mühüm faktora çevrilir.

Son illər aqrar sektorda uğurların qazanılmasında aparılan iqtisadi islahatlar mühüm rol oynayır. Prezident İlham Əliyev iyulun 31-də sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə burada aparılan islahatları yüksək qiymətləndirərək demişdir: “Kənd təsərrüfatında bu il rekord göstərici əldə edilib. Qeyd etdiyim kimi, bu, aparılan islahatların nəticəsində mümkün olub. Müxtəlif istiqamətli addımlar kənd təsərrüfatında canlanmaya gətirib çıxarıb. Əlbəttə ki, dövlət dəstəyi hər zaman olduğu kimi, bu il də göstərilir, bundan sonra da göstəriləcək.

Ardı 6-cı səh.

# Tarixi irsimizin Xanı...

## Şəkinin qədim memarlıq nümunəsi dünya mədəniyyətinin incisinə çevrilir

*XVIII əsr...*

*Ölkələrin çalxalanan, inqilaba şahidlik edilən, yeni torpaq iddiasında olanların at oynatdığı bir əyyam...*

*O əyyam ki, ölkəmiz də təlatümlər astanasında, cənubdan qonşu tapdağından yaxa qurtarmamış şimal hücumları ilə sarsılır, daxili didişmələr, çəkişmələrlə zəif düşürdü...*

Amma elə həmin zamanda arzusu bütün Azərbaycanı vahid dövlət tərkibində birləşdirmək olan Şəki xanı Hacı Çələbi çıxdı tarix səhnəsinə...

Çarpışdı, vuruşdu, bu müqəddəs amal uğrunda çox çətinliklərə sinə gərdi, xəyanətlərlə üzləşdi, hətta şücaət göstərərək ona qarşı ittifaq quran xanları belə əsirlikdən azad etdi...

Şəki xanlığını Azərbaycanda ən güclü siyasi qurum etdi, Şimal-Qərbi Azərbaycan torpaqlarının gürcü çarları tərəfindən işğalının qarşısını aldı...

Vergi sistemini nizama saldı, quruculuq işləri apararaq Şəkidə məscid, mədrəsə və digər ictimai binalar tikdirdi...

Ardı 7-ci səh.

# Ermənistan ordusunda fərarilik tüğyan edir

## Həm döyüş, həm də qeyri-döyüş şəraitində həyatını itirən erməni hərbçilərinin sayı durmadan artır

Üzləşdiyi tənəzzüldən xilas ola bilməyən Ermənistanda digər sahələrlə yanaşı, ordu quruculuğu prosesində də yaşanan problemlərin miqyası davamlı surətdə genişlənməkdədir.

Elə bunun nəticəsidir ki, şəxsi heyətin itkisi baxımından qeydə alınanlar getdikcə daha da böyüyür. Ordu rəhbərliyində aparılan dəyişikliklər də problemin qarşısının alınması istiqamətində hansısa yeniliyə gətirib çıxarmır. Əksinə, həm döyüş, həm də qeyri-döyüş şəraitində həyatını itirən erməni hərbçilərinin sayı durmadan artır.

Təkcə cəbhə zonasında bu ilin ötən dövrü ərzində onlarla erməni hərbçisi həyatını itirib. Bir çox hərbçi isə zülmdən canını qurtarmaq üçün ya fərarilik edir, ya da ölkədən birdəfəlik qaçmaqla canını qurtarmağa çalışır.

Ardı 7-ci səh.

# "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208, № 12, maddə 1019; 2007, № 12, maddə 1194; 2008, № 4, maddə 254, № 6, maddə 464, № 7, maddə 602, № 8, maddələr 699, 710; 2009, № 6, maddələr 395, 399, № 11, maddələr 877, 879; 2010, № 7, maddə 579; 2011, № 4, maddə 267, № 6, maddə 465, № 7, maddə 597, № 12, maddə 1109; 2012, № 11, maddələr 1037, 1044; 2013, № 3, maddə 223, № 5, maddə 485, № 6, maddələr 608, 614; 2015, № 5, maddə 494; 2017, № 5, maddə 676, № 7, maddə 1289, № 10, maddə 1776, № 12 (I kitab), maddə 2193; 2018, № 5, maddə 865, № 12 (I kitab), maddə 2504; 2019, № 2, maddə 205, № 3, maddə 380; Azərbaycan Respublikasının 2019-cu il 23 aprel tarixli 1565-VQD və 1568-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 6-1-ci maddədə "1 mart tarixindən 160 manat" sözləri "1 oktyabr tarixindən 200 manat" sözləri ilə əvəz edilsin;

1.2. 29.1-ci maddədə "və fərdi hesabın sığorta hissəsində qeydə alınan pensiya kapitalı" sözləri çıxarılsın;

1.3. aşağıdakı məzmunda 29.1-1-ci maddə əlavə edilsin:

"29.1-1. Sığortaolunanların fərdi hesabının sığorta hissəsində qeydə alınan pensiya kapitalı ildə bir dəfə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunan istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən indeksləşdirilir.".

**Maddə 2.** Bu Qanun 2019-cu il oktyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2019-cu il*

# "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1650-VQD nömrəli Qanununun tətbiqi və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1650-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 228; 2009, № 11, maddə 883; 2013, № 6, maddə 631; 2016, № 9, maddə 1467; 2017, № 5, maddə 756; 2018, № 2, maddə 185, № 12 (I kitab), maddə 2580; 2019, № 2, maddə 231, № 4, maddə 653, № 5, maddə 805) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bəndə "29.1-ci maddəsində (ikinci halda)" sözlərindən sonra ", 29.1-1-ci maddəsində (ikinci halda)" sözləri əlavə edilsin;

2.2. 2.6-cı bəndə "29.1-ci maddəsində (birinci halda)" sözlərindən sonra "və 29.1-1-ci maddəsində (birinci halda)" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanunundan irəli gələn məsələləri həll etsin.

5. Bu Fərman 2019-cu il oktyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 avqust 2019-cu il*

# "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında", "Arıçılıq haqqında", "Reklam haqqında" və "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu, 11-ci, 17-ci və 24-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 417; 2004, № 10, maddə 781; 2007, № 6, maddə 561; 2011, № 2, maddə 70; 2017, № 1, maddə 4, № 7, maddə 1284) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 1-ci maddə üzrə:

**1.1.1.** 1.0.8-ci maddədən "sənaye üsulu ilə müvafiq standartlara uyğun hazırlanan," sözləri çıxarılsın;

**1.1.2.** 1.0.10-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.0.11-ci maddə əlavə edilsin:

"1.0.11. qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlar - "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsi ilə müəyyən edilmiş texniki normativ hüquqi aktlar.";

**1.2.** 2-ci maddəyə "bu Qanundan," sözlərindən sonra "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanunundan," sözləri əlavə edilsin;

**1.3.** 7-ci maddə üzrə:

**1.3.1.** 7.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"7.1. Uşaqlar üçün nəzərdə tutulan süni qida məhsullarının minimum keyfiyyəti və təhlükəsizliyinə dair tələblər, onların istehsalı, qablaşdırılması, etiketləşdirilməsi, saxlanması, daşınması və satış şərtləri qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə, habelə Ümumdünya Səhiyyə Təşkilatının bu sahədə olan qaydalarına cavab verməlidir.";

**1.3.2.** 7.2-ci maddə ləğv edilsin;

**1.3.3.** 7.3-cü maddəyə "informasiyalar" sözündən sonra "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsindən irəli gələrək" sözləri əlavə edilsin;

**1.3.4.** 7.3.6-cı maddəyə "müddəti" sözündən sonra "və istehsal tarixi" sözləri əlavə edilsin;

**1.3.5.** 7.3.9-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 7.3.10-7.3.11-ci maddələr əlavə edilsin:

"7.3.10. məhsulun adı və növü;

7.3.11. məhsulun miqdarı (çəkisi).";

**1.4.** 8-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 8. Süni qida məhsullarının istehsalı və idxalı**

8.1. Azərbaycan Respublikasında süni qida məhsulları istehsalçılarının fəaliyyəti qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğunun təmin edilməsi məqsədi ilə yoxlanılır, məhsullar ekspertizadan keçirilir və həmin subyektlər qida təhlükəsizliyi qeydiyyatına alınır.

8.2. Qida təhlükəsizliyi qeydiyyatına alınmamış subyektlərin istehsal etdiyi və ya qida təhlükəsizliyi (sağlamlıq) sertifikatı verilməmiş süni qida məhsullarının Azərbaycan Respublikasına idxalı qadağandır.

8.3. Keyfiyyət göstəricilərinin müvafiq standartla müəyyən olunmuş tələblərə uyğunluğunu müəyyən etmək məqsədi ilə istehsalçının öz istəyi əsasında süni qida məhsulları akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən könüllü sertifikatlaşdırılır. Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyası "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada həyata keçirilir.";

**1.5.** 9-cu maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 9. Süni qida məhsullarının minimum keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarəti**

Süni qida məhsullarının minimum keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.";

**1.6.** 10-cu maddə üzrə:

**1.6.1.** 10.7-ci maddə aşağıdakı redaksiyada verilsin:

"10.7. "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən süni qida məhsullarının istehsalçıları və ya idxalçıları qida təhlükəsizliyi qeydiyyatına alındıqda və ya qida təhlükəsizliyi qeydiyyatından keçməyən idxalçının məhsulu qida təhlükəsizliyi (sağlamlıq) sertifikatına malik olduqda, həmin məhsulların reklamına icazə verilir. Reklamda istehsalçının qida təhlükəsizliyi qeydiyyatının və ya qida təhlükəsizliyi (sağlamlıq) sertifikatının nömrəsi, verilmə tarixi və onu verən orqanın adı göstərilməlidir.";

**1.6.2.** 10.10-cu maddədə "gigiyenik və mənşə sertifikatının" sözləri "mənşə, qida təhlükəsizliyi sertifikatlarının, subyektin qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarışın," sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 8, maddə 700; 2013, № 3, maddə 206, № 11, maddə 1293; 2014, № 11, maddə 1367; 2016, № 7, maddə 1238; 2017, № 5, maddə 714) aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** Preambulada, 1.1.1 - 1.1.5, 1.1.7 (hər iki halda), 3.0.1, 3.0.5, 5.0.1, 5.0.14, 5.0.15, 6.0.5, 6.0.6, 6.0.9, 9.1, 10.6, 11.1, 12.2.1, 15.1, 15.2, 15.4, 15.6, 16.1, 16.3, 16.4, 16.5 (hər iki halda), 16.6, 16.7, 16.7.6, 16.8 - 16.9, 17.1 - 17.6, 18.1 - 18.3, 18.3.1, 18.4, 23-cü maddələrdə, 9.4-cü maddənin birinci cümləsində, IV fəslin və 15, 16, 17, 18-ci maddələrin adında "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

**2.2.** 1-ci maddə üzrə:

**2.2.1.** 1.1.4-cü maddədə "müvafiq standartda, texniki reqlamentdə və digər normativ hüquqi aktda müəyyən olunmuş" sözləri "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsi ilə müəyyən edilmiş qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarda müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

**2.2.2.** 1.1.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"1.1.6. qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlar - "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsi ilə müəyyən edilmiş texniki normativ hüquqi aktlar;";

**2.3.** 2.1-ci maddədən "Standartlaşdırma haqqında," sözləri çıxarılsın;

**2.4.** 5-ci maddə üzrə:

**2.4.1.** 5.0.1-ci maddədə "reqlamentləşdirən" sözü "tənzimləyən" sözü ilə əvəz edilsin və həmin maddədən "və normativlər" sözləri çıxarılsın;

**2.4.2.** 5.0.3-cü maddəyə "mövcud olan" sözlərindən sonra "texniki" sözü əlavə edilsin;

**2.4.3.** 5.0.6-cı maddədən "və normativlərin" sözləri çıxarılsın;

**2.4.4.** 5.0.14-cü maddədən ", onların attestasiyasının həyata keçirilməsinə və müvafiq uyğunluq sertifikatlarının verilməsinə nəzarət etmək" sözləri çıxarılsın;

**2.4.5.** aşağıdakı məzmunda 5.0.14-1-ci maddə əlavə edilsin:

"5.0.14-1. "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə uyğun olaraq ekoloji təmiz kənd təsərrüfatı və qida məhsullarının istehsalı üçün istifadə olunan bütün avadanlıq və vasitələrə dair texniki normativ hüquqi aktların (habelə onların təkmilləşdirilməsinin) hazırlanmasını və təsdiq edilməsini həyata keçirmək;";

**2.5.** 5.0.2, 6.0.7, 11.2, 13, 14, 15.5, 16.10 və 18.3.2-ci maddələr ləğv edilsin;

**2.6.** 6.0.6-cı maddədə "beynəlxalq və milli standartlarda" sözləri "beynəlxalq standartlarda və qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarda" sözləri ilə əvəz edilsin;

**2.7.** 11-ci maddə üzrə:

**2.7.1.** 11.1-ci maddədən "standartlara," sözü çıxarılsın və həmin maddədə "olmasını təsdiq edən müvafiq sənəd (sertifikat) verilir" sözləri "qida təhlükəsizliyi qeydiyyatına alınır" sözləri ilə əvəz edilsin;

**2.7.2.** 11.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"11.3. Ekoloji təmiz kənd təsərrüfatı subyektlərinin qida təhlükəsizliyi qeydiyyatı "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 7.4-cü maddəsinə uyğun olaraq həyata keçirilir.";

**2.8.** 15-ci maddə üzrə:

**2.8.1.** 15.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"15.3. Qida təhlükəsizliyi qeydiyyatına alınmış subyektlər tərəfindən istehsal olunmuş və ya məhsullarına qida təhlükəsizliyi (sağlamlıq) sertifikatı verilmiş ekoloji təmiz kənd təsərrüfatı və qida məhsulları ekoloji təmiz məhsul kimi satışa çıxarıla bilər.";

**2.8.2.** 15.6-cı maddədən "milli və" sözləri çıxarılsın və həmin maddəyə "standartların" sözündən sonra "və qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların" sözləri əlavə edilsin;

**2.9.** 16-cı maddə üzrə:

**2.9.1.** 16.5-ci maddədə "bu məhsulların standartlarına" sözləri "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə" sözləri ilə əvəz edilsin;

**2.9.2.** 16.7-ci maddənin birinci cümləsində "müvafiq normativ hüquqi aktlara" sözləri "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə" sözləri ilə əvəz edilsin;

**2.9.3.** 16.7.6-cı maddənin sonundakı nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 16.7.7 - 16.7.9-cu maddələr əlavə edilsin:

"16.7.7. məhsulun adı, növü, tərkibi, miqdarı (çəkisi), qida dəyərliliyi;

16.7.8. məhsulun istifadə sahəsi və qaydaları;

16.7.9. qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlarda nəzərdə tutulan digər məlumatlar.";

**2.10.** 18-ci maddə üzrə:

**2.10.1.** 18.2-ci maddədə "belə məhsulların dövriyyəsi ilə məşğul olmağını təsdiq edən müvafiq sənəd (sertifikat)" sözləri "qida təhlükəsizliyi qeydiyyatına alınmış və ya məhsullarına qida təhlükəsizliyi (sağlamlıq) sertifikatı" sözləri ilə əvəz edilsin;

**2.10.2.** 18.3.1-ci maddədə "bu sahədə qüvvədə olan milli və beynəlxalq standartların" sözləri "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların" sözləri ilə əvəz edilsin;

**2.10.3.** 18.3.4-cü maddədə "keyfiyyət" sözü "qida təhlükəsizliyi" sözləri ilə əvəz edilsin;

**2.10.4.** aşağıdakı məzmunda 18.3-1-ci maddə əlavə edilsin:

"18.3-1. İdxal olunan yeyinti məhsulunun istehsalçısı qida təhlükəsizliyi qeydiyyatından keçdiyi halda həmin istehsalçının məhsullarına qida təhlükəsizliyi (sağlamlıq) sertifikatı tələb olunmur.".

**Maddə 3.** "Arıçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 208; 2011, № 2, maddə 71) aşağıdakı dəyişikliklər edilsin:

**3.1.** 1.0.12-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.0.13-cü maddə əlavə edilsin:

"1.0.13. qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlar - "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsi ilə müəyyən edilmiş texniki normativ hüquqi aktlar.";

**3.2.** 2-ci maddəyə "Heyvanlar aləmi haqqında" sözlərindən sonra ", "Yeyinti məhsulları haqqında" sözləri əlavə edilsin;

**3.3.** 5-ci maddə üzrə:

**3.3.1.** 5.0.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"5.0.2. arıçılıq məhsulları ilə, arıçılıqda istifadə olunan avadanlıq və vasitələrlə bağlı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktları təsdiq etmək, baytarlıq nəzarətini həyata keçirmək (baytarlıq şəhadətnaməsini vermək), arıçılıq subyektlərini qida təhlükəsizliyi qeydiyyatına almaq, arıçılıqla məşğul olan təsərrüfatlarda istehsal olunan məhsullara dair gigiyena normativlərini təsdiq etmək;";

**3.3.2.** 5.0.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"5.0.5. arıçılıq təsərrüfatlarının qeydiyyatını həyata keçirmək;";

**3.4.** 5.0.12, 15.4, 19.1, 19.3, 19.4 və 19.6-cı maddələr ləğv edilsin;

**3.5.** 6-cı maddə üzrə:

**3.5.1.** 6.1-ci maddədə "keyfiyyətli" sözü "minimum keyfiyyəti qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə cavab verən" sözləri ilə əvəz edilsin;

**3.5.2.** aşağıdakı məzmunda 6.5-ci maddə əlavə edilsin:

"6.5. Arıçılıq məhsullarının minimum keyfiyyətinin qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə cavab verməsinə dövlət nəzarətini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həyata keçirir.";

**3.6.** 9-cu maddə üzrə:

**3.6.1.** 9.1-ci maddədən "arıçılıq məhsullarının dövriyyəsi ilə məşğul olmaq," sözləri çıxarılsın;

**3.6.2.** 9.2-ci maddədə "müvafiq qanunvericiliyin, o cümlədən arıçılığa dair normativ sənədlərin tələblərinə, baytarlıq (baytarlıq-sanitariya) qaydalarına" sözləri "bu Qanunun 5.0.2-ci maddəsi ilə müəyyən edilən tələblərə" sözləri ilə əvəz edilsin;

**3.7.** 10-cu maddə ləğv edilsin.

**3.8.** 15-ci maddə üzrə:

**3.8.1.** adından "və uçotu" sözləri çıxarılsın;

**3.8.2.** 15.5-ci maddədə "uçota" sözü "qeydiyyata" sözü ilə əvəz edilsin;

**3.9.** 18-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 18. Arıçılıq məhsullarına dair tələblər**

18.1. Azərbaycan Respublikasında arı ailələri və istehsal edilən arıçılıq məhsulları bu Qanunun 5.0.2-ci maddəsi ilə müəyyən edilən tələblərə uyğun olmalıdır.

18.2. Azərbaycan Respublikasına idxal olunan arıçılıq məhsulları qanunvericiliyə uyğun olaraq tanınmış və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş qida təhlükəsizliyi (sağlamlıq) sertifikatına malik olmalıdır. İdxal olunan arıçılıq məhsulunun istehsalçısı qida təhlükəsizliyi qeydiyyatından keçdiyi halda həmin istehsalçının məhsullarına qida təhlükəsizliyi (sağlamlıq) sertifikatı tələb olunmur.

18.3. Keyfiyyət göstəricilərinin müvafiq standartla müəyyən olunmuş tələblərə uyğunluğunu müəyyən etmək məqsədi ilə istehsalçının öz istəyi əsasında arıçılıq məhsulları akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən könüllü sertifikatlaşdırılır. Bu uyğunluğu qiymətləndirən qurumların akkreditasiyası "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada həyata keçirilir.";

**3.10.** 19-cu maddə üzrə:

**3.10.1.** 19-cu maddənin adında "markalanması" sözü "etiketləşdirilməsi" sözü ilə əvəz edilsin;

**3.10.2.** 19.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"19.2. Arıçılıq məhsullarının qablaşdırılması və etiketləşdirilməsi "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə uyğun olaraq həyata keçirilir.";

**3.11.** 20-ci maddə üzrə:

**3.11.1.** 20.5-ci maddənin ikinci cümləsində "müvafiq normativ texniki sənədlərin" sözləri "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların" sözləri ilə əvəz edilsin;

**3.11.2.** 20.6-cı maddənin üçüncü cümləsi çıxarılsın və həmin maddənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Süni yolla və ya başqa mallardan alınmış məhsulu təbii bal kimi dövriyyəyə daxil etməklə istehlakçıların hüquqlarının pozulmasında təqsirli bilinən şəxslər qanunla nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.";

**3.11.3.** 20.7-ci maddə aşağıdakı redaksiyada verilsin:

"20.7. Azərbaycan Respublikasında istehsal olunan arıçılıq məhsullarının satışına icazə onları istehsal edən subyektlər qida təhlükəsizliyi qeydiyyatına alındıqda və bu məhsulların mənşəyi və keyfiyyəti barədə sənədlər olduqda yol verilir.".

**Maddə 4.** "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 812; 2016, № 11, maddə 1755, № 12, maddə 1996; 2017, № 3, maddə 334, № 5, maddələr 675, 748, № 6, maddə 1029, № 7, maddə 1307, № 12 (I kitab), maddə 2230; 2019, № 1, maddə 29, № 3, maddə 390, № 4, maddə 578) 30.6-cı maddəsində "gigiyenik və mənşə sertifikatının" sözləri "mənşə, qida təhlükəsizliyi (sağlamlıq) sertifikatının və ya onların istehsalçısının qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarışın" sözləri ilə əvəz edilsin.

**Maddə 5.** "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 23-24, maddə 368; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddələr 676, 683, 686; 2002, № 5, maddə 241; 2003, № 1, maddə 1; 2004, № 1, maddə 6, № 2, maddə 57; 2005, № 8, maddə 684, № 12, maddə 1083; 2007, № 8, maddə 745; 2011, № 11, maddə 984; 2012, № 9, maddə 842; 2014, № 10, maddə 1157; 2017, № 5, maddə 722; 2018, № 6, maddə 1169; 2019, № 1, maddə 31) aşağıdakı dəyişikliklər edilsin:

**5.1.** 18.0.1-ci maddədən "yeyinti məhsullarının və" sözləri çıxarılsın və həmin maddəyə "qaydalarına" sözündən sonra ", yeyinti məhsullarının isə qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara" sözləri əlavə edilsin;

**5.2.** 19.2.3-cü maddədə "müvafiq standartların, texniki şərtlərin" sözləri "texniki normativ hüquqi aktların" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2019-cu il*

# "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında", "Arıçılıq haqqında", "Reklam haqqında" və "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1663-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında", "Arıçılıq haqqında", "Reklam haqqında" və "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1663-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında", "Arıçılıq haqqında", "Reklam haqqında" və "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 9-cu maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur;

2.3. "Arıçılıq haqqında" Azərbaycan Respublikası Qanununun 6.5-ci maddəsində və 18.2-ci maddəsinin birinci cümləsində nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.4. həmin Qanunun 6.5-ci maddəsində və 18.2-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi nəzərdə tutulur.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında", "Arıçılıq haqqında", "Reklam haqqında" və "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 avqust 2019-cu il*

Əvvəli 1-ci səh.





# Dövlət sərhədləri etibarlı qorunur

*"Sərhəd Qoşunlarının möhkəmlənməsi müstəqilliyimizin möhkəmlənməsi deməkdir. Çünki hər bir ölkənin ərazisi onun sərhədindən başlayır. Bizim sərhədlərimiz dost üçün açıq, düşmən üçün bağlı olmalıdır. Azərbaycanın hərtərəfli inkişafı üçün, Azərbaycanda sülhün, sabitliyin, təhlükəsizliyin daha da möhkəmlənməsi üçün sərhəd nəzarəti ən yüksək səviyyədə olmalıdır...*
*Sərhəd bölgələrində olarkən daim sərhəd dəstələrinə baş çəkirəm, vəziyyətlə tanış oluram, sərhədçilərlə görüşürəm. Hər dəfə mən inkişafı görəndə, yeni texnikanı, yeni avadanlığı görəndə bir daha əmin oluram ki, bizim sərhədlərimiz etibarlı şəkildə qorunur."*

***İlham ƏLİYEV***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ali Baş Komandanlığı altında ardıcıl həyata keçirilən tədbirlər nəticəsində bu gün ölkəmizdə müasir tələblərə cavab verən güclü sərhəd mühafizə infrastrukturu yaradılmış, dövlət sərhədlərinin etibarlı mühafizəsində mühüm nailiyyətlər əldə olunmuş, Azərbaycanın sərhəd mühafizəsi peşəkar kadrlarla, müasir silah və texnika ilə təmin edilərək qarşıya qoyulan tapşırıqları ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan qurum səviyyəsinə yüksəlmişdir.

Dövlət sərhədimizin Azərbaycan sərhədçiləri tərəfindən qorunması milli dövlətçiliyin mühüm atributlarından olaraq xalqımızın əmin-amanlıq şəraitində yaşaması üçün əsas təminatlardan biridir.

Dövlət sərhədlərinin etibarlı mühafizəsi həlledici dərəcədə sərhədçilərin peşəkarlığından, hərbi hissələrin və bölmələrin təcrübəli heyətlə komplektləşməsindən asılıdır. Kadr hazırlığı Dövlət Sərhəd Xidmətinin fəaliyyətində çox əhəmiyyətli və xüsusi diqqət yetirilən sahədir. Azərbaycan sərhəd mühafizəsi müstəqilliyimizin ilk illərində bu sahədə ciddi çətinliklərlə üzləşmişdir. Sovet dövründə ölkəmizin yalnız cənub sərhədlərində sərhəd infrastrukturu var idi. Həmin sərhədləri isə sovet qoşunları mühafizə edirdi və sərhədçi kadrlar arasında azərbaycanlılar çox az idi. Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətləri sayəsində hələ sovet dövründə milli hərbçi kadrların yetişdirilməsi istiqamətində böyük işlər görülmüşdür. Respublikamızda C.Naxçıvanski adına hərbi liseyin yaradılması və hər il yüzlərlə azərbaycanlı gəncin Sovet İttifaqının müxtəlif ali hərbi məktəblərinə təhsilə göndərilməsi müstəqillik dövrünə hesablanmış böyük strateji addımlar olmuşdur. Uzaqgörən dövlət xadiminin diqqət və qayğısı sayəsində sovet dövründə hazırlanmış hərbçilər müstəqillik illərində kadrların hazırlanmasında böyük rol oynadılar.

Kadr hazırlığı məsələləri müstəqillik illərində də böyük dövlət xadiminin daim diqqət mərkəzində idi. 1993-cü ildə xalqımızın tələbi ilə yenidən hakimiyyətə qayıdan Ulu Öndərin müdrikliyi sayəsində dövlət sərhədinin mühafizəsində də yeni mərhələ başlandı. Dövlət sərhədlərinin mühafizəsi məsələlərinə göstərilən diqqət və qayğı sayəsində cənub sərhədlərində dağıdılmış sərhəd infrastrukturunun bərpası, ölkənin şimal və şimal-qərb sərhədlərində sərhəd məntəqələrinin yaradılması və maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər görüldü.

Ulu Öndər Heydər Əliyevin 1993-cü il noyabr ayının 2-də radio və televiziya ilə xalqa tarixi müraciəti sərhəd mühafizəsinin möhkəmlənməsi və inkişafı üçün də əhəmiyyətli oldu. Xalqın vətənpərvər oğulları müstəqil respublikamızın sərhədlərini qorumaq üçün müraciət etdilər. İlk vaxtlar təcrübəsizlik, ixtisaslı zabitlərin çatışmaması müəyyən çətinliklər törətsə də, mülki həyatdan gəlmiş zabit və gizirlər qısa müddət ərzində sərhədçi peşəsinə yiyələnə bildilər. Tədricən qoşunların kadr potensialı yaranmağa başladı.

1992-ci ildən Bakı Ali Ümumqoşun Komandanlıq Məktəbində sərhədçi zabitlərin hazırlanmasına başlanıldı. Məktəbin tədris prosesində sərhəd mühafizəsinin spesifik xüsusiyyətlərinin tam nəzərə alınmaması, sərhədçi zabitlərin peşə və mənəvi-psixoloji hazırlıqlarının lazımi səviyyədə olmaması son nəticədə dövlət sərhədinin etibarlı mühafizəsinə mənfi təsir göstərirdi. Bunları nəzərə alaraq, Ulu Öndər Heydər Əliyev 1998-ci il dekabr ayının 1-də Milli Təhlükəsizlik Nazirliyinin Akademiyasının yaradılması haqqında fərman verdi. Akademiyada yaradılmış "Sərhəd Qoşunları" fakültəsi Dövlət Sərhəd Xidmətinin peşəkar kadrlarla təmin edilməsində mühüm rol oynadı.

Sərhədçi zabit və gizirlərin, xüsusilə ehtiyatdan xidmətə qəbul olunanların bilik və peşə bacarığını artırmaq məqsədilə sərhəd mühafizəsinin tərkibində 1994-cü ilin avqust ayında kadrların hazırlanması və təkmilləşdirilməsi kursları təşkil edildi. 2005-ci ildən etibarən Dövlət Sərhəd Xidmətinin tədris mərkəzi, gizirlər məktəbi, həmçinin sahil mühafizəsinin tədris mərkəzi fəaliyyətə başladı.

Milli sərhədçi kadrların hazırlanmasına xüsusi önəm verən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev 2007-ci il iyun ayının 12-də Dövlət Sərhəd Xidmətinin Akademiyasının yaradılması barədə sərəncam imzaladı. 2008-ci ilin avqust ayında ilk kursantlar akademiyaya qəbul olundular.

2010-cu il avqust ayının 10-da Dövlət Sərhəd Xidmətinin akademiya kompleksi istifadəyə verildi və açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak etdi. Akademiyada kursantların sərhədçi peşəsinə yiyələnmələri, fiziki hazırlıqlarının yüksəldilməsi və asudə vaxtlarının səmərəli təşkil edilməsi üçün bütün şərait yaradılmışdır.

Milli sərhədçi kadrların hazırlığı istiqamətində görülən işlər sırasında Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin yaradılması mühüm yer tutur. Heydər Əliyev Fondu tərəfindən yenidən qurulmuş məktəb 2011-ci ilin oktyabr ayında istifadəyə verilmiş və açılış mərasimində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva iştirak etmişdir. Əsas məqsədi ölkə Prezidentinə, dövlətinə, xalqına sadiq, yüksək səviyyədə təlim və təhsil almış, fiziki və mənəvi cəhətdən sağlam, vətənpərvər Azərbaycan övladlarının yetişdirilməsi olan xüsusi məktəbin məzunları artıq Dövlət Sərhəd Xidməti Akademiyasında təhsil alırlar. Heydər Əliyev Fondunun dəstəyi ilə məktəbin yeni tədris korpusunun 2018-ci il mart ayının 5-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın iştirakı ilə istifadəyə verilməsi kursantların sayının 3 dəfəyədək artırılması imkanını yaratmışdır. 2019-cu ildə DSX Xüsusi Məktəbinə qəbul olunmaq üçün müraciətlərin sayının 1200-dən artıq olması və 1 kursant yerinə 26 nəfərdən ibarət müsabiqənin yaranması DSX Xüsusi Məktəbinin qısa müddət ərzində orta təhsil müəssisələri arasında böyük nüfuz qazanmasının göstəricisi olmuşdur.

Əgər əvvəllər əməkdaşlarımızın xaricdə təhsil almalarına və həmkarlarımızın təcrübəsindən yararlanmağa çalışırdıqsa, son illər ərzində xarici dövlətlərin sərhəd mühafizə orqanlarının əməkdaşları üçün tədrisin təşkili barədə müraciətlərin edilməsi, o cümlədən hazırda Tacikistandan olan kursantların DSX Akademiyasında hərbi təhsil almaları Dövlət Sərhəd Xidmətinin beynəlxalq nüfuzunun göstəricisidir.

DSX-də peşəkar kadrların hazırlanması üçün hərbi qulluqçuların fiziki hazırlığına da xüsusi diqqət yetirilir. Təsadüfi deyil ki, son illər ərzində sərhədçi idmançılar dünya və Avropa çempionatlarında, respublika birinciliklərində, müxtəlif beynəlxalq turnirlərdə 1248 qızıl, 831 gümüş, 971 bürünc medal qazanmışlar. Bu sırada Dövlət Sərhəd Xidmətinin "Sərhədçi" İdman-Olimpiya Mərkəzinin dünya miqyasında tanınmış idmançılarından baş leytenant Cəbrayıl Həsənov, leytenant Hacı Əliyev, baş leytenant Rəsul Çunayev, leytenant Rüstəm Orucov, kapitan Nicat Şıxalizadə, leytenant Fəridə Abıyevanın adlarını xüsusi qeyd etmək lazımdır.

Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi milli sərhəd təhlükəsizliyi strategiyasının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ali Baş Komandanlığı altında həyata keçirilməsi sayəsində xidməti-döyüş fəaliyyətində ciddi uğurlar əldə olunmuşdur. Məhz bunun nəticəsidir ki, Azərbaycanın sərhəd mühafizəsi bu gün şəxsi heyətinin peşəkarlığına, silah və hərbi texnika ilə təchizatına, ən əsası isə xidməti-döyüş fəaliyyətinin göstəricilərinə görə təkcə regionda deyil, Avropa miqyasında aparıcı mövqeyə yüksəlmişdir.

Azərbaycan Sərhəd Mühafizəsinin sürətli inkişafını görmək üçün hər il keçirilən müxtəlif mövzulu təlimlərə nəzər yetirmək kifayətdir. Peşə vərdişlərinin yüksək səviyyədə mənimsənilməsində böyük rol oynayan taktiki təlimlərin keçirilməsi şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsinə xidmət edir.

İllər keçdikcə təlimlərin məqsədi, miqyası və xarakteri dəyişir, qarşıya daha mürəkkəb vəzifələr qoyulur. Döyüş atışı ilə keçirilən irimiqyaslı əməliyyat-taktiki təlimlər zamanı ən müasir silah və texnikadan istifadə edən sərhədçilər sübut edirlər ki, qarşıya qoyulmuş vəzifələri yüksək səviyyədə yerinə yetirməyə qadirdirlər. 2016-cı ildən başlayaraq Azərbaycanın hərbi-dəniz tarixində ilk dəfə dənizdə zenit-artilleriya qurğularından və raket komplekslərindən gecə atışlarının yerinə yetirilməsi, ilk dəfə olaraq Mi-17 helikopterləri ilə gecə uçuşlarının keçirilməsi bu sahədə qazanılan uğurlardandır.

Dövlət Sərhəd Xidmətinin maddi-texniki bazası möhkəmləndirilir, yeni silahlar, döyüş texnikası, xüsusi avadanlıqlar, yüksək manevrli və keçid qabiliyyətli nəqliyyat vasitələri, sualtı əməliyyat və müşahidə, istehkam avadanlığı və qoruyucu vasitələr alınır.

Elmi-texniki tərəqqi sərhəd təhlükəsizliyinin təminatında da insan faktorunun azalmasını qaçılmaz edir. Ölkəmizin sərhəd təhlükəsizliyinin texniki yolla təmin olunması istiqamətində mühüm tədbirlər həyata keçirilməkdədir. Sərhəd məntəqələrində bir neçə ildir ki, səyyar radiolokasiya sistemləri tətbiq olunur. Sərhəd zastavalarının daxili təhlükəsizliyi üçün texniki vasitələr komplekslərinin və çevik müşahidə postlarının tətbiqi, sərhəd məntəqələrinin istiliyə həssas olan səyyar və stasionar müşahidə vasitələri ilə komplektləşdirilmiş elektron-optik vasitələrlə təchiz edilməsi, rəqəmsal informasiya-telekommunikasiya texnologiyası əsasında qurulmuş vahid elektron informasiya sisteminin yaradılması istiqamətində uğurlu tədbirlər həyata keçirilir.

Bununla yanaşı, Azərbaycanın MDB regionunda telekommunikasiya peykinə sahib olan üç ölkədən birinə, Qafqaz regionunda isə yeganə dövlətə çevrilməsi, kosmik sənayenin yaradılması və milli peyklərimizin orbitə çıxarılması bir çox digər sahələrlə yanaşı, dövlət sərhədərinin mühafizəsi istiqamətində də yeni imkanlar yaratmışdır.

Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində inşa olunaraq döyüş sıralarına daxil edilən sərhəd gözətçi gəmiləri mürəkkəb şəraitdə sürətli üzmə qabiliyyətinə malik olmaqla mükəmməl naviqasiya və rabitə-radiotexnika avadanlığı, müasir silahlar, o cümlədən raketlər və raket silahlarına qarşı komplekslər, gecə-gündüz müşahidə sistemləri və hidroakustik qurğu ilə təchiz edilib. Xəzər dənizində ağır üzmə şəraitində xidməti vəzifələrini yerinə yetirə bilən və itisürətli qayıqla təchiz olunmuş, göyərtəsinə helikopterin enməsi mümkün olan yeni gəmilərdən dövlət sərhədlərinin mühafizəsi, sərhədboyu rejimin təmin olunması, neft-qaz ehtiyatlarının hasilatı və nəqli infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi istiqamətində xidməti vəzifələrin icrası zamanı uğurla istifadə edilir.

Dəniz sərhədlərinin mühafizəsinin təmin edilməsi üçün Dövlət Sərhəd Xidmətinin özünün gəmi inşa etməsi bir neçə il öncə qeyri-real görünsə də artıq günümüzün reallığıdır. Bunun üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında dəniz sərhədlərinin mühafizəsi sistemində əsaslı islahatlar keçirildi. Azərbaycan Respublikası Prezidentinin 18 fevral 2005-ci il tarixli sərəncamı ilə DSX-nin Sahil Mühafizəsi yaradıldı. 2008-ci ilin noyabr ayında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Türkan qəsəbəsində Sahil Mühafizəsinin yeni bazası istifadəyə verildi. Xızı, Astara, Lənkəran, Türkan, Yalama, Neftçala texniki-müşahidə məntəqələrində xidmətin təşkili və aparılması təmin olundu, Astara şəhərində müasir tələblərə cavab verən Cənub katerlər divizionu yaradıldı. Hazırda Xəzərin Azərbaycan sektorunda hərəkət edən bütün obyektlər radarlar vasitəsilə fasiləsiz müşahidə edilir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 2014-cü il iyul ayının 18-də Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzinin açılışını etməsi, 2015-2019-cu illərdə altı dəfə həmin mərkəzdə inşası yekunlaşmış sərhəd gözətçi gəmiləri və yeni istifadəyə verilən müasir itisürətli qayıqlarla, xüsusi texnika ilə tanış olması dəniz sərhədlərimizin muhafizəsinə göstərilən ali diqqət və qayğının təzahürüdür.

Cari il iyul ayının 31-dən avqust ayının 2-dək "Xəzər dənizinin Azərbaycan sektorunda dəniz təhlükəsizliyinin təmin olunması" mövzusunda keçirilmiş taktiki təlimlərdə qarşıya qoyulan bütün tapşırıqların ən yüksək səviyyədə icra olunması, çətin üzmə şəraitinə baxmayaraq DSX Sahil Mühafizəsinin və Çevik Hərəkət Qüvvələrinin şəxsi heyəti tərəfindən yüksək döyüş hazırlığının və peşəkarlığın nümayiş etdirilməsi dənizdə mükəmməl sərhəd mühafizə infrastrukturunun formalaşdırılmasının əyani ifadəsi oldu. İyul ayının 26-da İran İslam Respublikasının "Şəbahəng" quru yük gəmisinin qəzaya uğraması zamanı 9 nəfərdən ibarət olan gəmi heyətinin xilas edilməsi DSX Sahil Mühafizəsinin yeni gəmilərinin yüksək manevr və sürət imkanlarını bir daha nümayiş etdirdi.

Sərhədçilər hər zaman hərbi, mənəvi-psixoloji, fiziki hazırlıqlarının yüksək səviyyədə olması ilə seçiliblər. 2019-cu il iyun ayının 12-də "Vətənə xidmət - andımız, amalımızdır" şüarı altında keçirilmiş möhtəşəm tədbirdə 5100 metr uzunluğunda dövlət bayrağımızı, başda generallar və zabitlər olmaqla, 5000 nəfərdən artıq sərhədçinin çiyinləri üzərində daşıması da dövlət müstəqilliyimizin rəmzi və hər bir azərbaycanlının qürur mənbəyi olan üçrəngli bayrağa sərhədçi ehtiramının, sərhədçi hörmətinin ifadəsi olmuşdur.

Sərhədçilər vətənin daxilində sabitliyin, asayişin, inkişafın, tərəqqinin olmasını daim arzulayırlar. Məhz buna görə də sərhədçilər həm vətənin müdafiəsində, həm də dövlətçiliyin qorunub saxlanılmasında qəhrəmanlıq nümunələrini göstəriblər və bu gün də hər bir təhlükənin qarşısını almağa hazırdırlar. Bu hisslərlə yaşayan sərhədçilər döyüş hazırlığına xüsusi fikir verirlər.

Sərhədçilərimizin göstərdiyi qəhrəmanlıq və cəsurluq nümunələri çoxdur. Torpaqlarımızın erməni təcavüzündən müdafiəsində, müstəqilliyimizin və dövlətçiliyimizin qorunmasında, dövlət təhlükəsizliyinin təmin edilməsində, xarici ölkələrin xüsusi xidmət orqanları əməkdaşlarının kəşfiyyat və terrorçuluq fəaliyyətinin qarşısının alınmasında, dövlət sərhədlərinin toxunulmazlığının təmin edilməsində xüsusi xidmətlərinə, göstərdikləri şəxsi igidlik və şücaətə görə onlarla sərhədçi yüksək təltiflərə layiq görülmüşdür. Ötən əsrin 90-cı illərində baş leytenant Eldar Məmmədov, gizir Faiq Cəfərov, polkovnik İntiqam Atakişiyev, baş leytenant Əmiraslan Əliyev, sərhədçi kursant Bəhruz Mansurov "Azərbaycanın Milli Qəhrəmanı" adına, leytenant Tahir Bədəlov "Azərbaycan Bayrağı" ordeninə layiq görülmüşlər.

"Zaqatala" sərhəd dəstəsinin Qubek istiqamətində Hacı Maqomedovun və onun başçılıq etdiyi cinayətkar dəstənin zərərsizləşdirilməsində göstərdikləri şücaətə görə əsgər Anar İsmayılov (ölümündən sonra) və ağır yaralanan Təbriz Quliyev "Azərbaycan bayrağı" ordeninə, əsgərlər Cabir Murtuzov və Pərvin Rüstəmov "Igidliyə görə" medalına layiq görülmüşlər. 2008-ci ildə sərhəd pozucuları ilə döyüşdə həlak olmuş və ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmiş leytenant Qorxmaz Həşimovun fədakarlığı, 2009-cu ildə terrorçularla döyüşdə öz həyatı bahasına əsgər yoldaşlarının və komandirlərinin həyatını xilas etmiş, ölümündən sonra XXI əsrdə Azərbaycanın ilk milli qəhrəmanı adına layiq görülmüş əsgər Eltun İsgəndərovun qəhrəmanlığı əsl vətənpərvərlik örnəyi, vətəndaşlıq nümunəsidir.

Dövlət Sərhəd Xidmətinin beynəlxalq əlaqələri də yüksələn xətt üzrə inkişaf etməkdədir. Bu istiqamətdə müqabil ölkələrin sərhəd mühafizə qurumları ilə qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin inkişafı vacib yer tutur. Təcavüzkar Ermənistan istisna olmaqla digər həmsərhəd ölkələrin sərhədçilərilə ikitərəfli əlaqələr uğurla inkişaf etdirilir.

Türkiyə Respublikasının Silahlı Qüvvələri ilə çoxşaxəli əməkdaşlıq əlaqələrinin inkişafı davam edir, dövlət sərhədlərinin mühafizəsi üzrə məsələlər dostluq və qarşılıqlı anlaşma şəraitində həll olunur. Türkiyə Silahlı Qüvvələrinin və Sahil Mühafizəsinin ali rəhbər vəzifəli şəxslərdən ibarət nümayəndə heyətləri ilə mütəmadi görüşlər keçirilir, DSX ilə qardaş ölkənin Silahlı Qüvvələri arasında imzalanmış əməkdaşlıq planları çərçivəsində DSX əməkdaşları Türkiyənin hərbi tədris müəssisələrində quru sərhədlərinin mühafizəsinin təşkili, sahil mühafizəsi, aviasiya, tibb və digər sahələr üzrə təşkil edilən kurslarda iştirak edir.

2018-ci ildə imazalanmış "Xəzər dənizində sərhəd qurumlarının əməkdaşlığı və qarşılıqlı fəaliyyəti haqqında Saziş" Xəzəryanı dövlətlərin müvafiq qurumlarının sərhəd mühafizəsi sahəsində əməkdaşlığının inkişafına təkan vermişdir. Azərbaycan-Rusiya-Qazaxıstan sərhəd xidmətlərinin iştirakı ilə Xəzər dənizinin bioresurslarının qorunması və hər növ qanunsuz fəaliyyətə qarşı mübarizə üzrə mütəmadi birgə əməliyyat-profilaktiki tədbirlər keçirilir. Azərbaycan, Rusiya və Qazaxıstanın sərhəd xidmətlərinin sərhəd gözətçi gəmilərinin qarşılıqlı dostluq səfərləri və birgə təlimləri təşkil olunur.

Aparıcı Qərb dövlətləri (ABŞ, Böyük Britaniya, Belarus, Fransa, Niderland, İtaliya, Ukrayna, Yaponiya), Yaxın Şərq (İsrail, Səudiyyə Ərəbistanı və s.) və Asiya ölkələrinin (Pakistan, Əfqanıstan, Çin, Tacikistan və s.) sərhəd mühafizə orqanları ilə təcrübə mübadiləsi və əməkdaşlıq inteqrə edilmiş sərhəd idarəçiliyi, sərhəd nəzarəti, qeyri-leqal miqrasiyaya qarşı mübarizə, dəniz sərhədlərinin mühafizəsi, müvafiq sahələr üzrə peşəkar hazırlığın təkmilləşdirilməsi, təlim-tədris sisteminin təşkili və digər sahələrdə həyata keçirilir. Avropa İttifaqı, NATO, BMqT, BMT-nin İnkişaf Proqramı, BMT QAK, FRONTEX, GUAM və s. beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlıq dinamik şəkildə inkişaf etdirilir.

Avropa İttifaqının dəstəyi, BMT-nin İnkişaf Proqramı və Beynəlxalq Miqrasiya Təşkilatının iştirakı ilə regional və milli səviyyədə inteqrasiya edilmiş sərhəd idarəçiliyi sistemlərinin yaradılmasına dair bir sıra layihələr həyata keçirilmişdir.

Avropa Agentliyi FRONTEX-lə həyata keçirilən əməkdaşlıq çərşivəsində müxtəlif tədbirlərdə onlarla DSX əməkdaşı iştirak etmiş, sərhəd mühafizəsi, sərhəd nəzarəti və təlim-tədris sahəsində təcrübə mübadiləsi aparılmışdır.

ABŞ-ın "Sərhəd təhlükəsizliyi və ixrac nəzarəti", "Müdafiəyə Təhdidin Azaldılması", "Müdafiənin İkinci Xətti" və s. proqramları çərçivəsində əməkdaşlıq fəaliyyətləri davam etdirilir, narkotiklərin qanunsuz dövriyyəsi, radioaktiv maddələrin, kütləvi qırğın silahları və onların komponentlərinin yayılması və digər təhdidlərin qarşısının alınması istiqamətində əməkdaşlıq həyata keçirilir.

Dövlət Sərhəd Xidməti tərəfindən zəngin mədəniyyətimizin və qədim atçılıq ənənələrimizin beynəlxalq aləmdə təbliğatı məsələlərinə də ciddi töhfə verilir. Cari ilin may ayında DSX-nin atçılıq mərkəzinin süvarilər dəstəsinin və rəqs ansamblının təqdimatında Böyük Britaniyada "Vindzor Kral Atçılıq Şou"sunda "Azərbaycan kəlağayısı və Qarabağ atları" adlı möhtəşəm kompozisiya Birləşmiş Krallığın Kraliçası II Elizabetin, kral ailəsinin üzvlərinin və digər tamaşaçıların böyük marağına səbəb olmuş, Qarabağ atlarının Azərbaycanın milli-mədəni irsinə aid olmasını növbəti dəfə nümayiş etdirmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən dövlət sərhəd-buraxılış məntəqələrində xidməti fəaliyyətin ən yüksək tələblər səviyyəsində təşkil olunması, dövlət sərhədindən keçən şəxslərin sənədlərinin yoxlanılması və viza prosedurlarının optimallaşdırılması, əcnəbilərin ölkəyə gəlmə və ölkədən getmə proseslərinin daha təkmil səviyyədə tənzimlənilməsinə nail olunması, xidmətdə ən müasir texniki vasitələrin tətbiqi, şəxsi heyətin peşəkarlığı, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə bu istiqamətdə qarşılıqlı faydalı əməkdaşlığın təşkil olunması sərhəd nəzarətinin etibarlığını daha da artırmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında milli diplomatiyamızın böyük uğuru olan 3 sentyabr 2010-cu il tarixli "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədi haqqında" dövlətlərarası müqavilənin icrası üzrə 2018-ci ilin 22 fevral tarixində müstəqillik illərində ilk dəfə olaraq, Azərbaycan-Rusiya dövlət sərhədində ilk sərhəd nişanının qoyulması və demarkasiya işlərinə başlanılması, ötən ilin 12 avqust tarixində Xəzər dəniz hövzə dövlətlərinin başçılarının V Zirvə toplantısında dövləti maraqlarımız üçün xüsusi əhəmiyyət kəsb edən "Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya"nın imzalanması ilə dövlət sərhədinin mühafizəsi üzrə xidməti-döyüş fəaliyyəti yeni mərhələyə qədəm qoymuşdur.

Azərbaycan sərhədçiləri onlara göstərilən ali diqqətə görə qürur hissi keçirirlər. Çünki şəxsi heyət üçün zəruri xidməti və yaşayış şəraitinin yaradılması üzrə Ali Baş Komandan qarşısında qaldırılan bütün məsələlərə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hər zaman xüsusi diqqətlə yanaşmışdır. Məhz bunun nəticəsidir ki, 2001-ci ildən etibarən Dövlət Sərhəd Xidmətinin büdcə ayırmaları 146 dəfə artmış, 17 hərbi hissə və struktur qurum, o cümlədən Horadiz, Göytəpə, Lənkəran, Xudat, Şəki, Zaqatala, Şəmkir sərhəd dəstələrinin qarnizonları, "Sərhədçi" İdman Olimpiya Kompleksi, "Sərhədçi" istirahət mərkəzləri, DSX Sahil Mühafizəsinin yeni bazası və yaşayış binaları kompleksi, DSX Akademiyası, DSX Xüsusi Məktəbinin yeni korpusu, xüsusi təyinatlı hərbi hissələr inşa olunmuş, Dövlət Sərhəd Xidmətinin aparatının binası əsaslı təmir edilmişdir. Ümumiyyətlə, 2002-ci ildən etibarən Dövlət Sərhəd Xidmətinin fəaliyyəti müddətində 740 xidməti bina istifadəyə verilmişdir.

Qazax-Ağstafa rayonları ərazisində Azərbaycan - Ermənistan dövlət sərhədi Dövlət Sərhəd Xidməti tərəfindən mühafizəyə götürüldükdən sonra 9 aylıq qısa bir müddətdə bilavasitə düşmənlə təmas xəttində ilk vaxtlar uyğunlaşdırılmış tikililərdə xidmətə başlayan sərhədçilərimiz üçün 75 ədəd ən müasir tələblərə cavab verən sərhəd məntəqəsi, iki hərbi hissə kompleksi tikilərək istifadəyə verilmişdir.

Dövlət Sərhəd Xidmətində hərbi tibb sahəsində yeniliklərin öyrənilməsi, sərhədçi hərbi qulluqçuların sağlamlığının effektiv təminatı məqsədilə müasir texnologiyaların, qabaqcıl təcrübələrin tətbiq edilməsi, ən yeni tibbi avadanlıqların istifadəyə verilməsi sahəsində mühüm tədbirlər həyata keçirilir. DSX Hərbi Hospitalının rəisi tibb xidməti polkovniki Kənan Yusif-zadənin Ambruaz Pare adına Beynəlxalq Hərbi Cərrahlar Forumunun prezidenti seçilməsi bu sahədə əldə olunmuş nailiyyətlərin beynəlxalq aləmdə sərhədçi həkimlərə böyük nüfuz qazandırmasının mühüm göstəricisidir.

Böyük fəxrlə qeyd edirəm ki, bu illər ərzində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev DSX-nin hərbi hissələrinə 37 dəfə səfər etmişdir. Bu rəqəm təkcə region dövlətləri üçün deyil, bütün dünya miqyasında sərhəd mühafizə orqanlarına dövlət başçısı tərəfindən göstərilən diqqət və qayğının unikal göstəricisi, Dövlət Sərhəd Xidmətinin fəaliyyətinə, həyata keçirilən islahatlara verilən ən yüksək qiymətdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 2017-ci il iyun ayının 5-də Dövlət Sərhəd Xidmətinin tərkibində 4 silahlı birləşmənin yaradılması barədə qərar verməsi, bununla əlaqədar idarəetmə sisteminin təkmilləşdirilməsi, aparatın yeni struktur qurumlarının, silahlı birləşmələrin idarəetmə orqanlarının fəaliyyətinin təşkil olunması və şəxsi heyətlə komplektləşdirilməsi Azərbaycanın sərhəd mühafizəsinə ən yüksək etimadının göstəricisidir.

Xüsusi olaraq vurğulamaq istərdim ki, 2005-ci ildə DSX aparatının inzibati binasında sərhəd dəstələrinə və hərbi hissələrə döyüş bayraqlarının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən şəxsən təqdim edilməsi biz sərhədçilərə diqqətin və qayğının təcəssümü olmaqla yanaşı, həm də müstəqil Azərbaycan naminə əqidələri uğrunda savaşmış Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavad kimi repressiya qurbanlarının ruhuna ehtiramın ifadəsi olmuşdur. Cari il may ayının 24-də Dövlət Sərhəd Xidmətinin aparatının yerləşdiyi inzibati binada Azərbaycan tarixinə bir sərhədçi töhfəsi olaraq "Siyasi repressiya qurbanları muzeyi"nin fəaliyyətə başlamasının əsas məqsədi də məhz milli dövlətçilik tarixinin və xalqımızın qan yaddaşının qorunub saxlanılmasına xidmət etmək olmuşdur.

Xidmətin bütün sahələrində ardıcıl həyata keçirilən islahatların səmərəliliyi ilk növbədə xidməti göstəricilərdə öz əksini tapır. Dövlət Sərhəd Xidmətinin fəaliyyəti dövründə Azərbaycan sərhədçiləri tərəfindən 10 min 989 sərhəd pozucusu, 160 min 428 nəfər rejim pozucusu, 37 min 789 nəfər axtarışda olan şəxs saxlanılmış, külli miqdarda qaçaqmalın, o cümlədən 6 ton 372 kq narkotik vasitənin dövlət sərhədindən keçirilməsinin qarşısı alınmışdır.

Bu illər ərzində Dövlət Sərhəd Xidməti tərəfindən Azərbaycana qarşı kəşfiyyat-pozuculuq fəaliyyətinin aşkarlanması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində xarici xüsusi xidmət orqanları tərəfindən əməkdaşlığa cəlb edilən 18 nəfər və əlaqədə şübhəli bilinən 86 nəfər Azərbaycan, 24 nəfər xarici vətəndaş aşkar olunmuş, terrorçuluğa qarşı mübarizə çərçivəsində 91 şəxs saxlanılmış, 388 nəfərin şəxsiyyəti müəyyən edilmişdir. Qanunsuz miqrasiya, qaçaqmalçılıq, o cümlədən narkotik qaçaqmalçılığı ilə məşğul olan 150 mütəşəkkil cinayətkar dəstə zərərsizləşdirilmişdir.

Bu statistik rəqəmlərin arxasında zabit və gizirlərimizin, çavuş və əsgərlərimizin gündəlik fədakar xidməti və qəhrəmanlıqları dayanır.

Bu gün əsas hədəfimiz işğal altında olan ərazilərimizdə sərhəd mühafizəsinin qurulmasıdır. Bu, hər bir Azərbaycan sərhədçisinin müqəddəs vəzifəsi və şərəf işidir!

2016-cı ilin aprelində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ali Baş Komandanlığı altında ən müasir silah və texnika ilə təchizatlanmış Silahlı Qüvvələrimiz tərəfindən düşmənin təxribatına cavab olaraq onun alınmaz hesab etdiyi mövqeləri, dislokasiya yerləri, komanda-dayaq məntəqələri, qərargahları dəqiq zərbələrlə darmadağın edildi, bununla da hərbi qüdrətimiz bütün dünyaya nümayiş etdirildi. Bu döyüş əməliyyatlarında Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının yaxından iştirakı, ümumi qələbənin əldə olunmasına ciddi töhfə vermələri hər bir Azərbaycan sərhədçisinin qürur yeri, Azərbaycanın sərhəd mühafizəsi tarixinin daha bir şanlı səhifəsidir!

Ali Baş Komandanın Azərbaycan sərhədçisinə etimadının göstəricisi olaraq Ermənistan ilə dövlət sərhədinin Qazax və Ağstafa rayonlarının ərazisindən keçən hissəsinin Dövlət Sərhəd Xidməti tərəfindən mühafizəyə götürülməsi dövlət sərhədlərinin bütövlüyünün təmin edilməsinin başlanğıcı olmaqla yanaşı, Azərbaycanın hərb qüdrətinin zəfər yürüşünün davamıdır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin yaxın günlərdə Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının tərkibində Ermənistan ilə dövlət sərhədinin mühafizəsi və müdafiəsi təyinatlı "Qazax" əlahiddə sərhəd diviziyasının yaradılması qərarı Azərbaycan sərhədçilərinin bu istiqamətdə xidməti-döyüş fəaliyyətinə Ali Baş Komandan səviyyəsində verilən ən yüksək dəyər, ən ali qiymətdir!

Bu gün hər bir Azərbaycan sərhədçisi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ali Baş Komandanlığı altında xidmət etməkdən qürurludur və dövlət sərhədlərinin toxunulmazlığı naminə şərəflə xidmət edir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müdrük rəhbərliyi və komandanlığı altında Silahlı Qüvvələrimiz tərəfindən yaxın müddətdə dövlətimizin ərazi bütövlüyünün təmin ediləcəyinə və həmin ərazilərdə dövlət sərhədlərinin mühafizəsinin Azərbaycanın dövlət bayrağı altında təşkil ediləcəyinə əminliyimiz gündən-günə artır, qələbəmiz anbaan yaxınlaşır!

Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti də bu vəzifələrin icrasında şərəflə iştirak etməyə daim hazırdır!

***Elçin QULİYEV,***
***Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik***

# Dünyada yaşanan demoqrafik böhran fonunda Azərbaycan reallığı

## İlham ƏLİYEV: "Azərbaycanın uğurlu inkişafı əhalinin artımına bilavasitə təsir edən amildir və biz buna daim hazır olmalıyıq"

*Əvvəli 1-ci səh.*

Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu, insan, vətəndaş amilinin ön planda dayandığı milli inkişaf strategiyasına əsaslanan bu siyasət Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilərək və yeni çağırışlara adekvat, praqmatik mövqedən yanaşılaraq demoqrafik proseslərin müsbət məcrada davam etməsinə imkan yaradıb. Təsadüfi deyil ki, cari ilin ən yaddaqalan hadisələrindən biri aprel ayında Azərbaycanın 10 milyonuncu sakininin doğulmasıdır. Bu fakt bir daha sübut edir ki, Azərbaycanda əhalinin dinamik artımı fonunda geosiyasi və milli maraqlara cavab verən demoqrafik təhlükəsizliyin təmin olunması və gələcəkdə sağlam nəslin yetişməsi ölkənin sosial-iqtisadi inkişaf strategiyasının əsas prioritet istiqamətidir.

Demoqrafik proseslərin intensivliyini təmin etmək üçün ölkəmizdə mövcud olan zəruri imkan və münbit şəraitdən, təbii ehtiyatlar və potensialdan səmərəli istifadə edilir. O üzdən bugünkü innovativ modernləşmə və tərəqqi prosesində insan kapitalının inkişafı və əhalinin demoqrafik təkrar istehsalının təmin edilməsi Azərbaycanın davamlı inkişafında prioritetlərdən birini təşkil edir.

Müasir iqtisadi inkişaf və sosial rifah konsepsiyasının reallaşmasında həlledici rol oynayan insan resursları demoqrafik potensialı formalaşdıran əhalinin təkrar istehsalı proseslərinin xarakteri ilə birbaşa bağlıdır. Demoqrafik proseslərin dinamikası isə onların intensivliyindən, əhalinin demoqrafik tərkibi və davranışlarından asılıdır. Eyni zamanda demoqrafik vəziyyət iqtisadi, sosial, mədəni, siyasi, hüquqi həyatın mühüm aspekti kimi ölkənin milli maraqları ilə birbaşa bağlı olduğu üçün bu sahədə proseslərin səmərəli institusional-hüquqi tənzimlənməsi, əhalinin fiziki və psixoloji sağlamlığı, mənəvi-intellektual səviyyəsinin davamlı yüksəlişi uzunmüddətli perspektivdə hərtərəfli inkişafa nail olmağın və həmin məqsədlər üçün dövlətin strateji resurslar potensialının gücləndirilməsinin zəruri şərtləri kimi çıxış edir.

Yeri gəlmişkən qeyd edək ki, əhali sakinliyinin inkişafı sahəsində siyasətin formalaşmasında 1994-cü ildə Qahirədə keçirilmiş "Əhali və İnkişaf" üzrə beynəlxalq konfransda qəbul edilmiş fəaliyyət proqramı xüsusi yer tutur. Konfrans əhali, davamlı inkişaf və insan hüquqları arasındakı əlaqələrin əhəmiyyətini vurğulayan və önə gətirən BMT-nin nəhəng tədbirlərindən idi. Müzakirə olunan məsələlərin qlobal xarakter daşıdığını nəzərə alan Heydər Əliyev həmin tədbirdə şəxsən iştirak edib və konfransdakı çıxışında fəaliyyət proqramının Azərbaycan üçün də son dərəcə əhəmiyyətli olduğunu bildirib. Onu da nəzərə çatdıraq ki, proqram dünyanın 179 ölkəsi, o cümlədən Azərbaycan tərəfindən qəbul edilib.

Qahirə konfransından keçən dövr ərzində Əhali və İnkişaf üzrə Fəaliyyət Proqramının prinsiplərinin həyata keçirilməsi istiqamətində Azərbaycanda mühüm işlər görülüb və həmin prinsiplər ölkəmizdə əhali və davamlı inkişafla bağlı qəbul edilən siyasi qərarlar üçün əsas olub. Konfransda qəbul edilmiş fəaliyyət proqramının müddəaları Azərbaycan tərəfindən hazırda da uğurla həyata keçirilir. Bu baxımdan demoqrafik vəziyyətin yaxşılaşdırılması, demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi üçün Şərqi Avropa və MDB dövlətləri arasında ilk dəfə olaraq ölkəmizdə Prezidentin 9 dekabr 1999-cu il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası"nın təsdiq olunması sıradan fakt deyil. Məhz həmin konsepsiya əsasında hazırlanmış və Prezident İlham Əliyevin 11 noyabr 2004-cü il tarixli sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı"nın icrası nəticəsində ölkəmizdə demoqrafik vəziyyətin və əhalinin orta illik artım göstəricilərinin yaxşılaşmasına, orta ömür müddətinin uzadılmasına və müsbət miqrasiya saldosuna nail olunub, ana və uşaqların müdafiəsinin gücləndirilməsi, ailələrin inkişafı üçün əlverişli sosial-iqtisadi şəraitin yaradılması və miqrasiya proseslərinin tənzimlənməsi istiqamətində kompleks tədbirlər reallaşdırılıb.

Bu gün Azərbaycan bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə uğurla birləşdirən ölkədir və bunun nəticəsidir ki, inkişaf edən iqtisadiyyat güclü sosial siyasətlə tamamlanır. Son 15 ildə Azərbaycanda ÜDM istehsalı 3,3, o cümlədən sənaye istehsalı 2,6, ixrac 4,7, valyuta ehtiyatları 24 dəfə artıb. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "...son 15 il ərzində iqtisadi baxımdan dünyada Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. Ölkəmizdə çox böyük infrastruktur layihələri icra edilmiş, insanların rifah halı yaxşılaşmış və respublikamızın gələcək inkişafı üçün möhkəm zəmin yaradılmışdır". Bu ilin də sosial-iqtisadi göstəriciləri müsbətdir. 6 ayda ÜDM istehsalı 2,4, qeyri-neft sektoru 3,2, o cümlədən qeyri-neft sənayesi 15,7 faiz artmışdır. Əhalinin gəlirlərində də 6,6 faiz artım müşahidə olunmuşdur.

2010-cu ildən Yüksək İnsan İnkişafı Kateqoriyalı ölkələr sırasına daxil edilən Azərbaycan bu gün dünyada yoxsulluğun 5 faizədək endirilməsinə nail olan 29 ölkədən biridir. Həmçinin Azərbaycan Minilliyin İnkişaf Məqsədləri üzrə yoxsulluğu yarıyadək azaldan 18 ölkə sırasındadır. 2015-ci ildə Minilliyin İnkişaf Məqsədlərinin icrasında əldə etdiyi nailiyyətlərə görə ölkəmiz "Cənub-Cənub" mükafatına layiq görülüb. Bu qiymətlərsə göydən düşməyib. 2003-cü ildən ötən dövrdə ölkəmizdə əməkhaqları 7,5, pensiyalar 10 dəfədən çox, həssas qruplara yönələn müavinət və təqaüdlər dəfələrlə artırılıb, yoxsulluq 5 faizə düşüb. Yeni iş yerlərinin yaradılması, məşğulluq imkanlarının genişlənməsi isə ölkədə işsizliyin kəskin azalaraq minimuma enməsi ilə nəticələnib.

2019-cu ilin sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacağını bəyan edən Prezident İlham Əliyevin cari il ərzində təqdim etdiyi iki sosial paket həmin bəyanatın yüksək səviyyədə reallaşmasını, ölkəmizdə sosial inkişaf, sosial rifahın yüksəldilməsi istiqamətində bir-birinin ardınca inqilabi xarakterli addımların atılmasını təmin edib. Cari ilin ilk aylarında dövlət başçısının müvafiq sərəncamları ilə minimum əməkhaqları və minimum pensiyanın 40, sosial müavinət və təqaüdlərin orta hesabla 100 faiz artırılması, sosial müavinətin iki yeni növünün tətbiqi və digər mühüm sosial tədbirlər 3 milyon vətəndaşımızın rifahının yaxşılaşmasına ciddi dəstək olub. Prezidentin cari ilin 18 iyun tarixli sərəncamları ilə ikinci böyük sosial paketin reallaşdırılması nəticəsində isə Azərbaycanda minimum əməkhaqqının məbləği 2019-cu il sentyabrın 1-dən 250 manata çatdırılaraq yaşayış minimumunu 40 faizədək üstələmiş olacaq, cari ildə minimum əməkhaqqının məbləğinin ümumi artımı 93 faiz təşkil edəcək. Artımdan sonra Azərbaycanda minimum əməkhaqqı MDB ölkələri arasında manatın alıcılıq qabiliyyətinə görə (PPP) 2-ci yerdə qərarlaşacaq.

Eyni zamanda dövlət başçısının yeni qanunvericilik təşəbbüsü kimi, əmək pensiyasının minimum məbləği 25 faiz artırılaraq cari il oktyabrın 1-dən 160 manatdan 200 manata çatdırılacaq. Nəticədə cari il ərzində minimum pensiyaların məbləğinin ümumi artımı 72 faiz olacaq və bununla da minimum pensiya təqaüdçülər üçün yaşayış minimumunu (149 manat) 34,2 faizədək üstələyəcək. Artımdan sonra Azərbaycanda minimum pensiyaların məbləği MDB ölkələri arasında nominal indeks üzrə 2-ci, manatın alıcılıq qabiliyyətinə görə 1-ci yerdə qərarlaşacaq. Ümumilikdə ikinci sosial paket daha 2,1 milyon vətəndaşı əhatə edəcək.

Ölkə rəhbərliyinin sosial sahədə həyata keçirdiyi siyasətin bir istiqaməti də dövlət sosial xidmətlərinin keyfiyyətinin innovativ yanaşmalar əsasında yüksəldilməsinə yönəlib. Cari ilin may ayında Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Bakının Yasamal rayonunda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi və agentliyin ilk DOST mərkəzinin açılması bu istiqamətdə mühüm addımdır. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan DOST layihəsi 126 növdə sosial xidmətin vahid platformadan, şəffaf və operativ, vətəndaş rahatlığına və məmnunluğuna nail olunmaqla təqdim edilməsinə imkan verir. 2019-2025-ci illərdə paytaxtımızda və bölgələrdə ümumilikdə 31 belə mərkəzin yaradılması planlaşdırılır.

Bunlardan savayı, Azərbaycanda ilk proaktiv xidmət olan avtomatlaşdırılmış pensiya təyinatı mexanizmi hesabına cari ilin birinci yarısında 13500 vətəndaşa hər hansı sənəd toplamadan və müraciət etmədən avtomatik pensiya təyin olunmuşdur. Ümumiyyətlə, Prezidentin müvafiq tapşırıqları ilə yaradılmış Mərkəzləşdirilmiş Elektron İnformasiya Sistemi, "e-sosial" internet portalı və 18 alt sistemdən ibarət olan informasiya sistemi vasitəsilə əlaqəli şəkildə göstərilən sosial xidmətlərin keyfiyyətinin yüksəldilməsinə və modernləşdirilməsinə nail olunacaq. Tezliklə tam istifadəyə veriləcək "Məşğulluq" alt sistemi isə işsiz və işaxtaran və məşğul şəxslərin reyestrlərini, ölkə üzrə mövcud iş yerlərinin avtomatlaşdırılmış vakansiya bankını, eləcə də məşğulluq xidmətlərinin tam elektronlaşmasını təmin edəcək.

Azərbaycanda həyata keçirilən bu islahatlar isə iqtisadi və sosial inkişafın təmin olunması ilə yanaşı, ölkənin demoqrafik inkişafına, habelə əhali artımına da müsbət təsir göstərir. Bunun təsdiqi kimi, 2003-cü ilin əvvəlindən ölkə əhalisinin sayının 20,1 faiz artaraq 2019-cu ilin martında 10 milyon nəfərə çatmasını göstərmək olar. Bu gün ölkəmizdə ötən onilliklər ərzində müşahidə olunan yüksək doğum göstəricilərinin hesabına formalaşmış əhalinin yaş strukturu əhalinin yüksək illik artım templərini təmin edir. Təkcə son 15 il ərzində əhalinin təbii artım göstəricisi hər 1000 nəfərə hesabı ilə 7,9 nəfərdən 8,4, doğulanların sayı 13,9 nəfərdən 14,2 nəfərədək artmış, ölənlərin sayı isə 6 nəfərdən 5,8-ə düşmüşdür. Bundan əlavə, səhiyyənin inkişafında əldə olunmuş nailiyyətlər hesabına 2003-2018-ci illərdə ana ölümü əmsalı (hər 100 000 nəfər doğulana) 18,5-dən 12,2, körpə ölümü əmsalı (hər 1000 nəfər doğulana) 15,5-dən 11,4-ə qədər azalmışdır. Bu dövrdə şəhər əhalisi 21, kənd yerlərində yaşayan əhalinin sayı 18 faiz artmışdır. Hazırda Azərbaycan Avropa və MDB ölkələri sırasında demoqrafik baxımdan cavan yaş strukturuna malik azsaylı ölkələrdən sayılır. Məlumat üçün bildirək ki, 2018-ci ildə 0-14 yaş qrupuna aid olanlar 22,4, 15-64 yaş qrupunda 70,8, 14-29 yaşlılar (gənclər) ölkə əhalisinin 23,3 faizini təşkil etmişdir. Başqa bir fakt: 2003-cü illə müqayisədə 65 yaş və yuxarı yaşda olan əhalinin sayı 20, 1990-cı illə müqayisədə isə 67 faiz artmış və bu təbəqənin əhalinin ümumi sayında xüsusi çəkisi 1990-cı ildəki 4,8, 2003-cü ildəki 6 faizdən 2018-ci ildə 6,8 faizədək yüksəlmişdir ki, bu da öz növbəsində əhalinin tədricən ömür uzunluğunun artmasını təmin etmişdir.

Demoqrafik təhlillər göstərir ki, ölkədə doğulanların cins strukturunda 1990-cı illərin əvvəllərindən oğlan uşaqlarının artımı müşahidə olunur və hazırda hər 100 doğulan qıza 115 oğlan düşür. 2013-cü ildə 2-ci uşaqlar arasında hər 100 qıza - 112, 3-cü uşaqlar arasında - 151, 4-cü və daha sonrakı doğulan uşaqlar arasında - 166 oğlan düşmüşdür ki, bu da ananın yaşı artdıqca doğulanların strukturunda oğlan uşaqlarının payının artmasını göstərir. Doğulanların cins nisbətinin pozulması isə ümumi əhalinin cins strukturunu dəyişir. Söz düşmüşkən qeyd edək ki, bunun qarşısının alınması üçün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın tapşırığına əsasən, BMT-nın Əhali Fondunun dəstəyi ilə hazırlanan 2019-2022-ci illər üçün Milli Fəaliyyət Planında qeyd olunan istiqamətdə aidiyyəti dövlət orqanları, sosial tərəfdaşlar, qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyəti ilə birgə həyata keçiriləcək kompleks tədbirlər nəzərdə tutulmuşdur.

Ölkədə həyat şəraitinin yaxşılaşması, habelə ümumi ölüm səviyyəsinin aşağı düşməsi doğulan zaman gözlənilən ömür uzunluğunun artmasına da səbəb olmuşdur. Məsələn, 2003-cü ildə ölkə üzrə doğulanda gözlənilən ömür uzunluğu 72,3, o cümlədən kişilər arasında - 69,5, qadınlar arasında - 75,1 yaş olmuşsa, 2018-ci ilin nəticələrinə görə bu göstərici 75,8 (o cümlədən kişilər üçün 73,3, qadınlar üçün 78,2) yaşa çatmışdır.

Əhalinin sayının artımına miqrasiya prosesləri də təsir edir. Məlumdur ki, son onilliklərdə müxtəlif amillərin təsiri altında Azərbaycanda miqrasiya vəziyyəti bir sıra dəyişikliklərə məruz qalmışdır. Ötən əsrin 90-cı illərinin əvvəlində ölkədən miqrasiya axınını heç kim unutmayıb. Sonrakı illərdə isə davamlı sosial-iqtisadi artım, regionların inkişafına, sahibkarlar üçün imkanların və yeni iş yerlərinin yaradılmasına, vətəndaşların sosial təminatının yaxşılaşmasına və bütövlükdə əhalinin rifahının yüksəlməsinə yönəldilən tədbirlər nəticəsində 2008-ci ildən başlayaraq miqrasiya saldosu müsbətə doğru dəyişmişdir. Təkcə 2018-ci ildə bu nisbət +1,5 min nəfər olmuşdur.

Prezident İlham Əliyev sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə demişdir: "Bu il biz 10 milyonuncu vətəndaşın dünyaya gəlməsini sevinclə qeyd etmişik. Bu, bizim böyük sərvətimizdir, amma digər tərəfdən onu deməyə əsas verir ki, biz daim iş yerlərinin yaradılması ilə məşğul olmalıyıq. Sosial infrastrukturun yaradılması ilə məşğul olmalıyıq, nəqliyyat sahəsində əlavə tədbirlər görülməlidir ki, artan əhali, vətəndaşlar özlərini rahat hiss etsinlər, işlə təmin olunsunlar. Bir daha demək istəyirəm ki, bu, daimi prosesdir. Çünki Azərbaycanın uğurlu inkişafı, sənaye sahəsində, iqtisadi sahədə inkişaf əhalinin artımına bilavasitə təsir edən amildir və biz buna daim hazır olmalıyıq". Həqiqətən, dövlət başçısının da vurğuladığı kimi, geosiyasi məsələlərin həlli, ölkənin səmərəli sosial-iqtisadi siyasətinin formalaşması və həyata keçirilməsi, sosial infrastrukturun inkişafı, o cümlədən yaşayış obyektlərinin tikintisi, məktəbəqədər müəssisələrin, məktəblərin, tibb müəssisələrinin planlaşdırılması və nəticə etibarı ilə davamlı inkişafın təmin edilməsi sahəsində düzgün qərarların qəbul olunması üçün demoqrafik proseslərin və əhali inkişafının proqnozlaşdırılması şərtdir. Bu baxımdan demoqrafik proseslərin və əhali inkişafının proqnozlaşdırılması ölkənin səmərəli sosial-iqtisadı siyasətinin formalaşmasında və həyata keçirilməsində, davamlı inkişafın təmin edilməsində vacib faktor hesab olunur.

2015-ci ildə beynəlxalq ekspertlər tərəfindən aparılmış proqnoz hesablamalar göstərir ki, son illər müşahidə olunan demoqrafik meyillər nəzərə alınaraq Azərbaycanda əhali sayının artımı davam edəcək və 2050-ci ildə 11,8 milyon nəfərə çatacaq. Özü də bu, əhalinin təbii artımı hesabına baş verəcək. Bu yerdə qeyd edək ki, Prezidentin 2019-cu il 4 iyul tarixli fərmanı ilə yaradılan Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya kompleks yanaşmalar əsasında əhali sakinliyi sahəsində mövcud vəziyyətin qiymətləndirilməsini, demoqrafik inkişaf meyillərinin öyrənilməsini həyata keçirəcək, sözügedən sahədə səmərəli idarəetmə qərarlarının qəbul edilməsi, inkişaf proqramlarının hazırlanması üçün əlavə dəstək olacaq. Digər tərəfdən, məlum olduğu kimi, 2019-cu il oktyabrın 1-10-da Azərbaycanda əhalinin növbəti siyahıyaalınması keçiriləcək. Bu zaman əhali və onun keyfiyyəti barədə əldə ediləcək dolğun məlumatlar isə cəmiyyətin inkişaf meyillərini öyrənmək, zəruri perspektiv qiymətləndirmələr və proqnozlar hazırlamaq üçün əvəzolunmaz mənbə olacaq.

Bu mövzudan bəhs edərkən bir faktı da nəzərə çatdırmaq vacibdir: Prezidentin 2012-ci il 29 dekabr tarixli fərmanı ilə təsdiqlənmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsaslanaraq əhalinin kəmiyyət və keyfiyyət artımını təmin etmək üçün ölkənin uzunmüddətli inkişaf xəttinə uyğun "Azərbaycan Respublikasında əhali sakinliyi və demoqrafik inkişaf sahəsində Dövlət Proqramı (2019-2030-cu illər)"nın layihəsi hazırlanmışdır. Özündə ailə institutunun möhkəmləndirilməsi və ailə dəyərlərinin təbliği, ailələrə, xüsusilə gənc ailələrə sosial dəstəyin artırılması, əhalinin reproduktiv sağlamlığının möhkəmləndirilməsi, ana və uşaqların mühafizəsinin gücləndirilməsi, əhalinin ölüm və xəstələnmə səviyyəsinin daha da azaldılması, həyat şəraitinin yaxşılaşdırılması və təhlükəsizliyinin təmin edilməsi, miqrasiya proseslərinin tənzimlənməsinin təkmilləşdirilməsi, əhali sakinliyi və demoqrafiya sahəsində kadr və elmi potensialın inkişafı məsələlərini ehtiva edən bu proqramın əsas məqsədi əhalinin davamlı artımı və keyfiyyət xüsusiyyətlərinin yaxşılaşdırılması əsasında əhalinin sabit təkrar istehsalının təmin olunmasıdır.

Göründüyü kimi, Prezident İlham Əliyevin mükəmməl islahatlar konsepsiyasına uyğun ölkədə ictimai-siyasi sabitlik şəraitində xalqın əmin-amanlığı və rifahı naminə atılan ardıcıl və mühüm addımlar demoqrafiya və əhali sakinliyinin inkişafında bu gün öz müsbət təsirini göstərir və bu tendensiyanın gələcəkdə də davam edəcəyinə təminat verir.

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

# Tovuzda günərzi qayğı mərkəzinin fəaliyyətinə baxış olub



Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və Tovuz rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov nazirliyin sifarişi ilə Tovuz rayonunda yaradılmış günərzi qayğı mərkəzinin fəaliyyətinə baxış keçiriblər.



Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, S.Babayev mərkəzin kollektivi ilə görüşündə bildirib ki, Prezident İlham Əliyevin bu il iyunun 1-də imzaladığı sərəncamın icrası işləri çərçivəsində xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə göstərilən sosial xidmətlərin genişləndirilməsi işləri aparılır. Ölkəmizin bölgələrindəki günərzi xidmət mərkəzlərinin sayı da artırılır. Həmin mərkəzlərin sayı iki dəfədən çox artırılaraq 60-a yaxın olacaq. Bununla artıq demək olar ki, hər bir bölgədə müvafiq kateqoriyadan olan uşaqlar üçün günərzi xidmət mərkəzi olacaq.

Mərkəzdə yaradılmış şərait, buradakı günərzi qayğı xidmətləri, uşaqlarla aparılan işlər nəzərdən keçirilib. Nazir mərkəzin fəaliyyəti, uşaqlara göstərilən reabilitasiyayönümlü sosial xidmətlərlə bağlı müvafiq tapşırıqlar verib.

Mərkəzin fəaliyyətində məqsəd çətin həyat şəraitində olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsi, həmin uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınmasıdır. Buraya uşağını təkbaşına böyüdən ailələrin sosial təhlükəli vəziyyətdə olan uşaqları, habelə aztəminatlı (sosial yardım təyin edilmiş) ailələrin uşaqları cəlb edilib.

Mərkəzdə 30-dək uşağın (3-12 yaş arasında) yarımstasionar şəraitdə təlim-tərbiyəsi, qidalanması, müxtəlif dərnəklər vasitəsilə bacarıqlarının inkişaf etdirilməsi üçün işlər aparılır. Burada fəaliyyət göstərən pedaqoq, tərbiyəçi, psixoloq, musiqi müəllimi, aşpaz və digər sosial işçilər onlara müxtəlif bacarıqların aşılanması üçün çalışırlar.

# Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması ATƏT-in Minsk qrupu həmsədrlərinə çağırış edib

*Əvvəli 1-ci səh.*

Etiraz məktubunda, həmçinin bildirilir ki, XXI əsrdə ölkələrin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin güc yolu ilə dəyişdirilməsi qəbuledilməzdir. N.Paşinyanın münaqişənin sülh yolu ilə həll edilməsinə dair fikirləri isə gözdən pərdə asmaqdan başqa bir şey deyil. Bu, Ermənistanın işğalçılıq siyasətini gizlətmək üçün uydurulmuş bəhanədir. Ermənistanın əsas məqsədi beynəlxalq ictimaiyyəti və ATƏT-in Minsk qrupunu aldatmaqdan ibarətdir. Paşinyan "Qarabağ Ermənistanın tərkib hissəsidir" deməklə ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə gedən danışıqları zərbə altında qoyur və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlara bərpaedilməz zərər vurur. Ermənistan baş nazirinin fikirlərini bu ölkənin xarici işlər naziri də təsdiqləyib.

"Biz, Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının üzvləri ATƏT-in Minsk qrupunu Ermənistanın baş naziri Nikol Paşinyanın bu ilhaqçı siyasətini pisləməyə çağırırıq", - deyə etiraz məktubunda vurğulanır.

Qeyd edək ki, bu məktub ATƏT-in Minsk qrupu həmsədrləri ilə yanaşı, Minsk qrupunun digər üzv dövlətlərinə və qurumun Parlament Assambleyasına, BMT-nin Baş katibinə, Avropa Şurasının və Avropa İttifaqının müvafiq qurumlarına, habelə digər beynəlxalq təşkilatların ünvanlarına göndərilib.

Məktubu "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi İdarə Heyətinin sədri Tural Gəncəliyev, İdarə Heyətinin üzvləri Flora Qasımova, Asif Cahangirov, Dürdanə Ağayeva, Xatirə Vəliyeva, Samirə Hüseynova, Nigar Mövsümlü və s. imzalayıblar.

# Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Avstraliya hökumətinə etiraz məktubu ünvanlayıb

Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması ölkəmizin işğal olunmuş Dağlıq Qarabağ bölgəsindəki qanunsuz separatçı rejimin "üzvləri"nin Avstraliyaya səfəri və səfər çərçivəsində bəzi rəsmilərlə keçirilən görüşlə əlaqədar Avstraliya hökumətinə və qanunverici orqanına etiraz məktubu göndərib.



Bu barədə AZƏRTAC-a "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyindən məlumat verilib.

Məktubda bildirilir ki, qondarma rejimin üzvlərinin Avstraliyaya səfər etməsi birbaşa Avstraliya hökumətinin rəsmi mövqeyinə ziddir. "Avstraliya hökuməti Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini, bu mövqeyin dəyişməz olduğunu bəyan edib. Qeyd edirik ki, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağda etnik təmizləmə aparılıb və yüz minlərlə soydaşımız öz torpaqlarından didərgin düşüb. Bu gün erməni diasporu Avstraliyada qondarma rejimi təbliğ edir və işğalın nəticələrini legitimləşdirməyə çalışır. Belə bir məqamda qondarma rejimin "üzvləri"nə bəzi Avstraliya rəsmiləri tərəfindən "xoş münasibət" göstərilməsini biz - Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması olaraq qəbuledilməz hesab edirik" deyə məktubda vurğulanır.

Məktubu "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi İdarə Heyətinin sədri Tural Gəncəliyev, İdarə Heyətinin üzvləri Flora Qasımova, Asif Cahangirov, Elçin Əhmədov, Dürdanə Ağayeva, Xatirə Vəliyeva, Samirə Hüseynova, Nigar Mövsümlü və digərləri imzalayıblar.

# Azərbaycanın Cəmmu və Kəşmir məsələsində mövqeyi ardıcıl xarakter daşıyır

"Azərbaycanın Cəmmu və Kəşmir məsələsində mövqeyi ardıcıl xarakter daşıyır".

AZƏRTAC xəbər verir ki, bu sözləri "Cəmmu və Kəşmirdə baş verən hadisələrlə əlaqədar Azərbaycanın mövqeyi" barədə sualı cavablandıran Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva deyib.

L.Abdullayeva vurğulayıb ki, Azərbaycan Cəmmu və Kəşmir məsələsinin beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq həllini dəstəkləyir.

Qeyd edək ki, Azərbaycan Respublikası İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Cəmmu və Kəşmir məsələsi üzrə Kontakt qrupun üzvüdür. Bu günlərdə İƏT-in Ciddədə mənzil-qərargahında Cəmmu və Kəşmir üzrə Kontakt qrupun iclası keçirilib.

# Bakıda "Dəniz kuboku-2019" müsabiqəsinin bağlanış mərasimi keçirilib






Avqustun 15-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Beynəlxalq Ordu Oyunları-2019" çərçivəsində Bakıda təşkil edilən "Dəniz kuboku-2019" yarışlarının qaliblərinin mükafatlandırılması və müsabiqənin təntənəli bağlanış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan və Rusiya Müdafiə nazirliklərinin rəsmilərinin, iştirakçı dövlətlərin, müşahidəçi qismində Türkiyə, Pakistan, Səudiyyə Ərəbistanı, Bəhreyn və Birləşmiş Ərəb Əmirliklərinin silahlı qüvvələrinin nümayəndələrinin, xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş hərbi attaşelərinin, Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinin hərbi qulluqçularının, media təmsilçilərinin iştirak etdikləri mərasimdə respublikanın Əməkdar artisti Ramil Qasımovun və əsgər xorunun ifasında dünya şöhrətli sənətkarımız Rəşid Behbudovun repertuarından "Ey Vətən" mahnısı səsləndirilib.

Mərasimin aparıcıları Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani, Rəna Qurbanova və Mixail Sklyamin bildiriblər ki, Rusiya Federasiyası Müdafiə Nazirliyinin təşəbbüsü ilə 2015-ci ildə bünövrəsi qoyulan "Beynəlxalq Ordu Oyunları"na maraq artır və ildən-ilə iştirakçı dövlətlərin sayı çoxalır. "Dəniz kuboku-2019" müsabiqəsinin həyəcanlı anları artıq geridə qaldı və hərbi dənizçilərimiz təbiətin sərt sınaqlarından uğurla çıxdılar. Üçüncü ildir ki, Azərbaycan "Dəniz kuboku" müsabiqəsinə evsahibliyi edir və yarışların şəffaf, yüksək səviyyədə təşkili üçün hər cür şərait yaradır. Ötən illərdə olduğu kimi, bu il də "Dəniz kuboku" dostluq, qardaşlıq, qarşılıqlı anlaşma şəraitində keçib və bütün iştirakçı dövlətlərin böyük marağına səbəb olub.

Sonra "Dəniz kuboku-2019" müsabiqəsində iştirak edən ölkələrin dövlət bayraqları təntənəli surətdə mərasimə gətirilib.

Rusiya Xəzər Flotiliyasının, İran İslam Respublikası, Qazaxıstan və Azərbaycan respublikaları Hərbi Dəniz Qüvvələrinin komandalarının iştirak etdikləri "Dəniz kuboku" müsabiqəsinin kuboku və iştirakçı dövlətlərin bayraqları alqışlar altında səhnəyə gətirilib, yarışların qısa xronikası videoçarx vasitəsilə təqdim edilib, beynəlxalq hakimlər kollegiyasının son qərarı mərasim iştirakçılarına çatdırılıb.

Xəzər dənizinin Azərbaycana məxsus ərazi sularında şəffaf, qarşılıqlı anlaşma şəraitində keçən "Dəniz kuboku-2019" müsabiqəsinin qalibi Azərbaycan komandası olub. İkinci yeri Rusiya, üçüncü yeri Qazaxıstan komandaları tutub.

Mərasimdə çıxış edən Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini, Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi, "Dəniz kuboku-2019" müsabiqəsinin Təşkilat Komitəsinin sədri, general-leytenant Nizam Osmanov qeyd edib ki, bu gün paytaxt Bakı şəhərində beşinci "Beynəlxalq Ordu Oyunları" çərçivəsində "Dəniz kuboku-2019" müsabiqəsinə yekun vurulur. O bildirib ki, Rusiya Federasiyası Hərbi Dəniz Donanması və İran, Qazaxıstan, Azərbaycan respublikaları Hərbi Dəniz Qüvvələrinin komandaları on gündən çoxdur Xəzər dənizinin Azərbaycan akvatoriyasında gərgin şəraitdə yarışdılar və bacarıqlarını nümayiş etdirdilər: "Şəffaf və yüksək səviyyədə keçirilən builki müsabiqədə iştirakçıların peşəkar döyüş hazırlığı səviyyəsinin yüksək olduğu müəyyən edildi. Beynəlxalq hakimlər kollegiyası öz vəzifələrini ləyaqətlə yerinə yetirdilər. Artıq qaliblər məlumdur. Sevindirici haldır ki, Xəzəryanı ölkələrin hərbi dənizçiləri öz güclərini döyüş meydanında deyil, yarış meydanlarında sınadılar. Mən "Dəniz kuboku-2019" müsabiqəsinin uğurla başa çatması münasibətilə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin rəhbərliyi adından bütün iştirakçıları, hakimləri, azarkeşləri, xüsusilə qalib komandaları təbrik edirəm".

General-leytenant bildirib ki, hansı ölkənin komandasının qalib gəlməsindən asılı olmayaraq ən böyük qələbəmiz Xəzəryanı ölkələrin hərbi dənizçilərinin bir-birlərini yaxından tanıması, qarşılıqlı etimadın güclənməsi, əməkdaşlığın möhkəmləndirilməsi, təcrübə mübadiləsi, dostluq və qardaşlıq mühitinin daha da genişlənməsi oldu. "Onu da diqqətinizə çatdırmaq istəyirəm ki, beşinci "Beynəlxalq Ordu Oyunları"nda altı növ üzrə müsabiqədə Azərbaycanı təmsil edən komandalarımız da yüksək nəticələr əldə ediblər. Bu münasibətlə onları da təbrik edirəm" deyə N.Osmanov əlavə edib.

Sonra qaliblərin mükafatlandırılması mərasimi keçirilib. Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev, Rusiya Federasiyası Müdafiə nazirinin birinci müavini Ruslan Salikov, Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini, Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi, "Dəniz kuboku-2019" müsabiqəsinin Təşkilat Komitəsinin sədri, general-leytenant Nizam Osmanov, Rusiya Federasiyası Silahlı Qüvvələrinin Hərbi Dəniz Donanmasının baş qərargah rəisi, vitse-admiral Andrey Volojinskiy, Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinin komandanı vəzifəsini icra edən birinci dərəcəli kapitan Zaur Hümmətov və Rusiya Federasiyası Silahlı Qüvvələrinin Hərbi Dəniz Donanmasının Döyüş Hazırlığı İdarəsinin rəisi kontr-admiral Oleq Korolyov komandalara və üzvlərinə kubok, medal və diplomlar təqdim ediblər.

Sonra Azərbaycanın Dövlət himni ifa edilib.

Daha sonra çıxış edən Rusiya Federasiyası Müdafiə nazirinin birinci müavini Ruslan Salikov yarış iştirakçılarını təbrik edərək müsabiqənin yüksək səviyyədə keçdiyini diqqətə çatdırıb. O, qeyd edib ki, bu cür yarışlar dünyada sülhə və sabitliyə töhfədir. Azərbaycanın bu yarışı çox yüksək səviyyədə təşkil etdiyini bildirən R.Salikov Rusiyanın müdafiə naziri Sergey Şoyqunun adından Azərbaycan Ordusunun rəhbərliyinə təşəkkür edib.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev çıxış edərək bildirib ki, "Dəniz kuboku-2019" yarışı çox möhtəşəm və gözəl şəraitdə keçdi: "Bütün təşkilatçılara, yarışda iştirak edən ölkələrin nümayəndə heyətlərinə Azərbaycanın Müdafiə Nazirliyi adından təşəkkürümü bildirirəm. Biz çalışdıq ki, yarışları yüksək qonaqpərvərlik və dostluq şəraitində keçirək. Hesab edirəm ki, buna nail olduq. Bu yarışlarda ən böyük nailiyyət isə dostluq və qardaşlıq oldu".

Sonra Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev müsabiqəni bağlı elan edib.

"Beynəlxalq Ordu Oyunları-2019" yarışlarının və "Dəniz kuboku" müsabiqəsinin bayraqları endirilib.

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbaninin senarisi və rejissorluğu ilə hazırlanan "Dəniz kuboku-2019" beynəlxalq müsabiqəsinin bağlanışına həsr olunmuş təntənəli mərasim bədii hissə ilə başa çatıb. Bədii hissədə respublikanın Xalq artisti Samir Cəfərov, Əməkdar artist Məryəm Şabanova, Fuad Musayev, "Səma" rəqs qrupu və digər sənətçilər çıxış ediblər.

## "Tank biatlonu" müsabiqəsində iştirak edən tankçılarımız final hazırlıqlarını başa vurublar




"Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində keçirilən "Tank biatlonu" müsabiqəsində finala vəsiqə qazanan tankçılarımız son hazırlıqlarını başa vurublar.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tank heyətləri və texniki dəstək qrupu tərəfindən final estafetində istifadə olunacaq döyüş maşınlarına baxış keçirilib.

Heyətlərimiz döyüş maşınlarını yoxladıqdan sonra tankın ştat silahlarından yoxlama atışları da icra ediblər.

Püşkatmanın nəticəsinə əsasən, Azərbaycan tankçıları avqustun 17-də keçiriləcək final estafetində birinci divizionda Rusiya, Belarus və Qazaxıstan komandaları ilə mübarizə aparacaq.

## "Artilleriya atəşinin ustaları" müsabiqəsi başa çatıb



"Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində Qazaxıstanda keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsi başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yarışların nəticələrinə və hakimlərin qərarına əsasən, 12 komandanın qatıldığı müsabiqədə toplanılan ballara uyğun olaraq Qazaxıstan komandası birinci, Rusiya komandası ikinci, Özbəkistan komandası üçüncü, Azərbaycan komandası isə dördüncü yerə layiq görülüblər.

"Artilleriya atəşinin ustaları" müsabiqəsinə təntənəli bağlanış mərasimi ilə yekun vurulub.

## Azərbaycan komandası "Dəniz kuboku-2019" beynəlxalq yarışlarının qalibi olub

"Beynəlxalq Ordu Oyunları-2019" çərçivəsində Bakıda keçirilən "Dəniz kuboku-2019" beynəlxalq yarışlarının başa çatması ilə əlaqədar avqustun 15-də mətbuat konfransı təşkil olunub.




AZƏRTAC xəbər verir ki, mətbuat konfransında iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri, hakimlər komissiyasının üzvləri, yerli və xarici jurnalistlər iştirak ediblər.

Mətbuat konfransında müsabiqənin yüksək səviyyədə təşkili və keçirilməsi üçün yaradılan şərait, texniki dəstək qruplarının fəaliyyəti, hakimlər kollegiyasının işi və müsabiqənin mərhələ və epizodlarının yerinə yetirilməsi üzrə iştirakçı ölkələrin komandalarının göstəriciləri barədə ətraflı məlumat verilib.

Azərbaycan nümayəndə heyətinin rəhbəri, birinci dərəcəli kapitan Sübhan Bəkirov bildirib ki, Bakıda keçirilən "Dəniz kuboku-2019" beynəlxalq müsabiqəsi də yüksək səviyyədə təşkil olunub: "Üç mərhələdən ibarət yarışda Rusiya, Azərbaycan, Qazaxıstan və İran nümayəndə heyətləri iştirak ediblər. Bu yarışlar gərgin keçsə də, sonda dostluq qalib gəldi. Təlim-məşq toplanışında biz gələcəkdə birgə fəaliyyətlə bağlı təcrübə mübadiləsi aparmışıq. "Dəniz kuboku-2019" yarışı zamanı hərbi dənizçilər "Artilleriya atışlarının yerinə yetirilməsi", "Gəminin dayanıqlılığı uğrunda mübarizə və xilasetmə hazırlığı" və "Dəniz hazırlığı" üzrə mərhələlərdə güclərini sınayaraq ən yaxşı heyətləri müəyyənləşdiriblər. Qərara əsasən Azərbaycan komandası 212 balla birinci, Rusiya 186 balla ikinci, Qazaxıstan 142 balla üçüncü, İran 136 balla dördüncü yeri tutub".

S.Bəkirov deyib ki, beynəlxalq yarışların şəffaf və yüksək səviyyədə təşkili üçün hər cür şərait yaradılıb.

Rusiya Hərbi Dəniz Donanması komandasının nümayəndə heyətinin rəhbəri, 1-ci dərəcəli kapitan Sergey Yekimov yarışların keçirilməsi üçün yaradılan yüksək şəraitə görə təşəkkürünü bildirib. O, bu yarışın Rusiya komandası üçün əhəmiyyətli olduğunu vurğulayaraq deyib: "Çox gərgin və maraqlı yarış keçdi. Yüksək peşəkarlıq nümayiş etdirən Azərbaycan komandasını qələbə münasibətilə təbrik edirəm. Oyunlar ən yüksək səviyyədə təşkil olunub. Dəniz kuboku hər zaman qarşılıqlı anlaşma və dostluq ruhu ilə fərqlənib. Bu, əsl dostluq yarışıdır. Rusiya bu oyuna həmişə böyük önəm verir".

İştirakçılara uğurlar arzulayan Qazaxıstan nümayəndə heyətinin rəhbəri, 1-ci dərəcəli kapitan Kanat Niyazbekov da Bakıda keçirilən "Dəniz kuboku-2019" yarışına hazırlığın yüksək səviyyədə olduğunu bildirib: "Azərbaycan belə mühüm yarışı üçüncü dəfədir yüksək səviyyədə təşkil edib. Azərbaycan tərəfinə bunun üçün təşəkkür edirəm. On gün ərzində dənizçilər öz peşəkarlıqlarını ortaya qoydular. Gərgin mübarizə şəraitində qazandıqları qələbə münasibətilə Azərbaycan komandasını təbrik edirəm".

İran nümayəndə heyətinin rəhbəri, 1-ci dərəcəli kapitan Hüseyn Həsəni yarışın əhəmiyyətini qeyd edərək deyib: "Bu yarışda yenidən iştirak etməkdən məmnunuq. Bu, dostluq yarışıdır. Biz Bakıda olmaqdan çox şadıq. Bu yarışlar bizə təcrübə mübadiləsi aparmağa imkan yaradır. Xəzəryanı dövlətlər arasında bu cür tədbirlər çox faydalıdır və ümumi təcrübəyə, ölkələrimiz arasında tərəfdaşlıq və dostluğun inkişafına təkan verir".

Sonra mətbuat nümayəndələrinin sualları ətraflı cavablandırılıb.

# Beynəlxalq aləm

## ABŞ-ın 13 ştatı Tramp administrasiyasını məhkəməyə verdi

ABŞ-ın 13 ştatı Ağ evin elan etdiyi yeni immiqrasiya qaydalarının qüvvəyə minməsinin qarşısını almaq məqsədilə Prezident Donald Trampın administrasiyasına qarşı məhkəmədə iddia qaldırmışdır. "Röyter" agentliyinin xəbərinə görə, ştatlar administrasiyanın azgəlirli şəxslərə viza və vətəndaşlıq verilməsini məhdudlaşdıran qərarına etiraz edirlər.

İddianı Vaşinqton, Virciniya, Delaver, Kolorado, İllinoys, Massaçusets, Minnesota, Miçiqan, Merilend, Nevada, Nyu-Cersi, Nyu Meksiko və Rod-



Aylend ştatları vermişdir. Vaşinqtonun baş prokurou Robert Ferqüson bildirmişdir ki, Tramp administrasiyasının belə bir qərarı amerikalı olmaq istəyən bir çox adamların arzularını puç edə bilər. Onun dediyinə görə, qərar artıq ABŞ-da yaşayanlara ziyan vurar, onları ev-eşiksiz və tibbi yardımsız qoyar. Baş prokuror əlavə etmişdir ki, "Tramp administrasiyasının ideyası aydındır: varlısınızsa, xoş gəlmisiniz, yoxsulsunuzsa, yox".

İddianı Vaşinqton qubernatoru Cey İnsli də dəstəkləmişdir. O qeyd etmişdir ki, "Vaşinqton həmişə immiqrantların yanında olacaq, Tramp administrasiyasının hər hansı hərəkəti nə işlə, nə də sözlə bunu dəyişdirə bilməz".

Trampın köməkçisi Stiven Millerin təklif etdiyi qaydalar ABŞ-a gəlib dövlət yardımı almağa ümid edən adamlara qarşı yönəlmişdir. Ağ ev administrasiyasının fikrincə, ölkənin vətəndaşı olmaq istəyənlərin özləri ayağa qalxa bilərlər. Vətəndaşlığın verilməsi və immiqrasiya məsələləri bürosu rəhbərinin səlahiyyətlərini icra edən Ken Kuççinelli bildirmişdir ki, "insan yoxsuldursa, o, ABŞ-ın tamhüquqlu sakini olmağa hazırlaşmalıdır".

Ağ ev administrasiyasının yeni qərarı oktyabrın 15-də qüvvəyə minməlidir.



## Yaponiyada fırtına üzündən 580 min nəfər təhlükəsiz yerlərə köçürülür

Yaponiya hakimiyyət orqanları "Krosa" fırtınasının yaxınlaşması üzündən təxminən 580 min sakini təhlükəsiz yerlərə köçürməyi tövsiyə etmişdir. Bu barədə "Kyodo" agentliyi xəbər verir.

Sikoku və Küsü adalarında təqribən 280 min ev daşqın və torpaq sürüşməsi zonasında ola bilər. Meteorologiya agentliyi təhlükənin səviyyəsini mümkün beş dərəcədən yeddi dərəcəyə yüksəltmişdir. Bu o deməkdir ki, sakinlərə tezliklə evlərini tərk edib təhlükəsiz rayonlara köçmək tövsiyə olunur.

Fırtına ucbatından aviaşirkətlər 720-dən çox daxili reysi ləğv etmişdir. Həmçinin ölkənin qərb bölgələrində dəmiryolu nəqliyyatının hərəkəti pozulmuş, sürətli avtomagistralların ayrı-ayrı sahələri bağlanmışdır.

"Krosa" bu il Sakit okeanda formalaşmış onuncu fırtınadır. Proqnoza görə, fırtına tezliklə Yapon dənizinə çıxacaq, sonra isə şimala, Hokkaydo adasına doğru hərəkətini davam etdirəcək.

## Suriya müxalifəti hökumət qoşunlarının döyüş təyyarəsini vurdu

Suriya müxalifəti və Bəşşar Əsəd rejiminin əleyhdarları ölkənin şimal-qərbində hökumət qoşunlarının hərbi təyyarəsini vurmuşdur. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Məlumata görə, Su-22 qırıcı-bombardmançı təyyarəsi Həma əya-



lətinin şimalında və İdlib əyalətinin cənubunda müxalifətin nəzarət etdiyi yaşayış məntəqələrini bombalamağa cəhd edərkən vurulmuşdur. Su-22 zenit qurğusu ilə məhv edilmiş və Səmaniyə qəsəbəsində yerə düşmüşdür. Pilot paraşütlə təyyarəni tərk etmiş və yaxalanmışdır.

## Kaliforniya həbsxanasında dava: 50-dən çox məhbus zərər çəkdi

ABŞ-ın Kaliforniya ştatında yerləşən "Soledad" federal həbsxanasında baş vermiş iğtişaşlar nəticəsində 50-dən çox məhbus zərər çəkmişdir. Bu barədə ABC telekanalı xəbər verir.



İlkin məlumata görə, iğtişaşlar təxminən 200 məhbusun iştirakı ilə kütləvi davadan başlamışdır. 50 zərərçəkənə tibbi yardım göstərilmiş, 8 zərərçəkən həbsxanadan kənarda yerləşən xəstəxanalara göndərilmişdir.

Qiyam həbsxana mühafizəsi xəbərdarlıq atəşi açdıqdan sonra dayanmışdır. Penitensiar müəssisənin əməkdaşları iğtişaşların gedişində zərər çəkməmişlər.

## Norveçin ilk elektrotəyyarəsi gölə düşdü

"Alpha Electro" modelindən olan elektromühərrikli ikinəfərlik təyyarə Norveçin şimal-cənubunda, Arendal şəhərinin yaxınlığında gölə düşmüşdür. Bu barədə "Röyter" agentliyi xəbər verir.



"Pipistrel" aviaşirkətinin aeroportlar operatoruna - "Avinor"a məxsus layneri ölkədə yanacaqsız işləyən ilk təyyarə idi.

Təyyarə ilə Norveç hökumətinin nümayəndəsi və pilot - "Avinor"un başçısı Dak Falk-Petersin uçurmuşlar. Layner gölə düşdükdən sonra onun aşağı hissəsi suyun altında qalmış, amma heç kim ciddi zədə almamışdır. Falk-Petersin bildirmişdir ki, baş vermiş hadisə şirkətin hökumətlə birgə həyata keçirdiyi təyyarələrin elektrikləşdirilməsi proqramının reallaşdırılmasına mənfi təsir göstərəcək.




# Kənd təsərrüfatında rekord göstəricilərə nail olunur


Foto Ağaəli MƏMMƏDOVUNDUR

Əvvəli 1-ci səh.

Bu istiqamətdə atılan addımlar artıq real nəticələr verir və kənd təsərrüfatı uğurla inkişaf edir. Əsasən bitkiçilik sahəsində, heyvandarlıqda artım təxminən üç faizə yaxındır. Hesab edirəm, bu sahəyə daha da böyük diqqət göstərilməlidir ki, heyvandarlıq da əhəmiyyətli dərəcədə artsın".

Ərzaq təhlükəsizliyində taxıl istehsalı mühüm rol oynayır. Belə ki, çörək ölkə əhalisinin ən çox istifadə etdiyi ərzaq növüdür. Bu üzdən dünyanın böyük taxıl istehsalçısı olan ölkələr buğda ixracında süni qiymət artımına da əl atırlar. Onlar yaxşı bilirlər ki, hər bir ölkədə bu növ məhsula tələbat böyükdür və bunsuz heç bir ölkə öz ərzaq təhlükəsizliyini təmin edə bilməz. Dövlətimiz bu ab-havanı yaxşı başa düşdüyü üçün vaxtında taxılçılığın inkişafı istiqamətində mühüm tədbirlər gördü. Fermerlərə toxum və mineral gübrə satışında güzəştlər, istifadə etdikləri yanacaq və sürtkü yağlarına görə subsidiya verildi. Görülən bu tədbirlər nəticəsində fermerlərdə taxılçılığa maraq yarandı, ölkədə taxıl istehsalı ildən-ilə artmağa başladı. Digər tərəfdən, ölkədə taxılçılıq üzrə ixtisaslaşan iri fermer təsərrüfatları yaradıldı ki, burada da məhsuldarlıq çox yüksəkdir.

Cari ildə 1 milyon 12 min hektarda taxıl əkilib. Bunun 670 min hektarını buğda, 342 min hektarını isə arpa əkini təşkil edib. Bu il taxıl istehsalı 40 faiz artıb. Bununla yanaşı, məhsuldarlıq da yüksəlib. Taxılçılıqda məhsuldarlıq 30 sentnerdən çox olub. Əvvəlki illərdə isə bu rəqəm 20 sentnerə bərabər idi. Bir çox təsərrüfatlarda, xüsusilə müasir texnika və texnologiyalardan istifadə edən iri fermer təsərrüfatlarında məhsuldarlıq 60 sentner, bəzilərində daha yüksək olub.

Dövlət aqrar sektorun inkişafına daim dəstək verir. Bu məqsədlə müxtəlif layihələr icra edilir, lazım gəldikdə isə əvvəlki qaydalar təkmilləşdirilir. Ölkə rəhbərinin tapşırığı ilə lizinq fəaliyyəti ilə bağlı həyata keçirilən növbəti islahat da bunun nəticəsidir. Artıq dövlət tərəfindən tətbiq olunan güzəştlər və subsidiyalar bütün təchizatçı şirkətlərə şamil edilir. Bunun sayəsində bazarda texnikanın qiymətində təxminən 30 faiz ucuzlaşma qeydə alınıb. Cari ildə 700-dən çox texnikanın satılması da bunun sayəsində mümkün olub. Eyni zamanda, belə hal fermerlərə gübrələrin satışına da tətbiq ediləcək. Beləliklə, aparılan liberallaşma siyasəti fermerlərə məhsuldarlığı artırmaqda geniş imkanlar açır.

Bitkiçiliyin digər sahələrində də məhsul istehsalında artım qeydə alınıb. Cari ilin 6 ayında bostan məhsulları təxminən 40, meyvə 20 faizdən çox, barama 25, tərəvəz isə 14 faiz artıb. Heyvandarlıqda da uğurlu nəticələr əldə edilib. Belə ki, keçən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-iyun aylarında diri çəkidə ət istehsalı 3, süd istehsalı 2, yumurta istehsalı 4,5, yun istehsalı 0,8 faiz artıb. Bundan başqa, ölkədə 636,6 ton barama istehsal olunub ki, bu da son 21 ilin ən yüksək göstəricisidir. Beləliklə, cari ilin yanvar-iyun aylarında ötən ilin eyni dövrünə nisbətən kənd təsərrüfatında ümumi məhsul istehsalı 13 faiz, o cümlədən bitkiçilik məhsullarının istehsalında 25,6, heyvandarlıq məhsullarının istehsalında isə 2,9 faiz artıb.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Naxçıvan MR-də ötən illə müqayisədə 5,4 faiz çox taxıl istehsal edilib

Cari il muxtar respublika üzrə taxıl sahələrindən 102 min 984 ton məhsul tədarük olunub ki, bu da 2018-ci ilin göstəricisi ilə müqayisədə 5295 ton və ya 5,4 faiz çoxdur. Yığılan məhsulun 77261 tonu buğda, 25 min 723 tonu isə arpadır. Məhsuldarlıq orta hesabla 30,9 sentnerdir.



AZƏRTAC xəbər verir ki, biçilmiş məhsulun 13947 tonu Şərur, 33707 tonu Babək, 4785 tonu Ordubad, 18 min 993 tonu Culfa, 15 min 316 tonu Kəngərli, 4437 tonu Şahbuz, 8788 tonu Sədərək rayonlarının, 3011 tonu isə Naxçıvan şəhərinin payına düşüb.

Cari ilin taxıl biçinində orta hesabla 86 kombayn iştirak edib ki, bunun da 77-si sahibkarlara, 9-u "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə məxsus olub. Tədarük edilən buğdanın bir kiloqramının cari ildə 35, arpanın isə 30 qəpikdən mərkəzləşmiş qaydada satın alınması taxıl əkininə və onun vaxtında itkisiz yığılmasına marağı daha da artırıb.

Muxtar respublikada məhsul istehsalçılarının texnika ilə təmin olunması üçün "Naxçıvan Aqrolizinq" ASC-nin xətti ilə ümumilikdə müxtəlif adda 2684 kənd təsərrüfatı texnikası və avadanlığı alınıb.

Əkinçiliyin inkişafında başlıca şərtlərdən biri də məhsuldar toxum sortlarının yetişdirilməsidir. Yerli və rayonlaşdırılmış toxum sortlarından istifadə olunmaqla yetişdirilən toxum sortları muxtar respublikanın torpaq mülkiyyətçiləri və fermer təsərrüfatları tərəfindən istifadə edilir. Hazırda muxtar respublikada 5 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir.

# AXA-nın mütəxəssisləri fermerlərə təlimlər keçirlər

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin (AXA) baytar mütəxəssisləri Göyçay rayonunda quşçuluq sahəsində fəaliyyət göstərən bir qrup fermerə "Quşlarda çiçək və nyukasl xəstəliklərinin profilaktikası və mübarizə tədbirləri" mövzusunda təlim keçiblər.

Təlimin nəzəri hissəsi Göyçay Rayon Baytarlıq İdarəsində, praktiki hissəsi isə rayonun Cəyirli kəndi sakini Qüdrət Quliyevə məxsus 1700 baş cücə saxlanılan quşçuluq təsərrüfatında baş tutub.

Təlimdə fermerlərə quşların nyukasl və çiçək xəstəlikləri, xəstəliklərin başvermə səbəbləri, iqtisadi zərəri, xəstəliklərə qarşı aparılan peyvəndləmə və digər baytarlıq tədbirləri barədə ətraflı məlumatlar verilib, xəstəliklərin profilaktikasında istifadə olunan vaksinlərin və başqa vasitələrin dövlət vəsaiti hesabına alındığı, təsərrüfatlarda saxlanılan quşlara təmənnasız tətbiq olunduğu bildirilib.

Sahibkarlara məxsus quşların xüsusi təhlükəli xəstəliklərə qarşı peyvənd edilməsinin vacibliyini qeyd edən mütəxəssislər ilin əvvəlindən indiyədək Göyçay rayonu ərazisində mövcud olan quşlarda nyukasl xəstəliyinə qarşı profilaktik peyvəndləmə aparıldığını diqqətə çatdırıblar.

Sonda fermerləri maraqlandıran suallar cavablandırılıb və geniş fikir mübadiləsi aparılıb.

# Qarabağın xindoqnı üzüm sortunun bərpa olunması üçün tədbirlər görülür

Xindoqnı sortu Azərbaycanın ən qədim, qiymətli, yerli texniki üzüm sortudur. Əsas vətəni Qarabağdır. Təəssüf ki, ötən əsrin 80-ci illərində erməni separatçıları tərəfindən torpaqlarımıza qarşı başlamış işğal siyasəti və nəticədə ərazilərimizin zəbt olunması bu sortun da itirilməsinə səbəb olmuşdur.

Aqrar Elm və İnnovasiya Mərkəzinin şöbə müdiri Nicat Nəsirli deyir ki, xindoqnı sortunun məhsulu yüksəkkeyfiyyətli qırmızı süfrə şərabları istehsalı üçün qiymətli xammaldır. Bu üzdən o, ölkəmizin şərabçılıq üzrə milli brendlərin istehsalı məqsədilə xammal bazasının yaradılması və ixrac potensialının yüksəldilməsində zəngin texnoloji parametrlərə və imkanlara malikdir: "Vaxtilə xindoqnı sortunun respublikamızın ümumi üzüm bağlarında əkilib-becərilmə payı 4,1 faiz təşkil edirdi ki, bu da 12 min hektar üzüm bağı demək idi. Qarabağın dağlıq hissəsindəki üzümlüklərin 85-90 faizi xindoqnı sortunun becərildiyi sahələr olmuşdu. Bu sortdan çəhrayı süfrə şərabı - "Gişi", qırmızı süfrə şərabları - "Qarakənd", "Xocavənd", markalı qırmızı şərab - "Qızılqaya", portveyn şərablardan - "Çəhrayı portveyn", "Qırmızı portveyn", "Çartar", markalı çərəz şərablardan Qarabağ-qırmızı, xindoqnı və tavkveri üzüm sortlarının qarışığından "Qobustan" adi qırmızı süfrə şərabı, xindoqnı, Mədrəsə, tavkveri üzüm sortlarının qarışığından - "Ağsu", "Şahdağ" kəmşirin şərabları, xindoqnı və Mədrəsə sortlarının qarışığından "Azərbaycan portveyni (qırmızı)" adda yüksəkkeyfiyyətli müxtəlif növ şərablar istehsal edilirdi. Vaxtilə bu şərablar nəinki respublikamızda, hətta xarici ölkələrdə də məşhur idi".

Bütün bu amillər nəzərə alınaraq xindoqnı üzüm sortunun bərpa olunması istiqamətində Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu tərəfindən elmi-seleksiya işlərinə başlanılıb. İnstitutun direktor əvəzi Vüqar Səlimovun sözlərinə görə, bununla əlaqədar institutun əməkdaşları tərəfindən ölkənin müxtəlif regionlarındakı köhnə üzüm bağlarında, fermer, ailə-kəndli və ev təsərrüfatlarında sortun müəyyən edilərək, gələcəkdə əkin materialı tədarük olunması üçün tədqiqatlar həyata keçirilir: "İlk olaraq Beyləqan rayonundakı köhnə üzüm bağlarında (keçmiş Mil Üzümçülük Sovxozu, Daşburun qəsəbəsi) xindoqnı üzüm sortunun hələ də əkilib-becərildiyi müəyyən olunub. Eyni zamanda institutun Gəncə Təcrübə Stansiyasının və Abşeron Təcrübə Təsərrüfatının kolleksiya bağlarında da xindoqnı sortu qorunub saxlanılır".

# Kəndlərarası yollar yenidən qurulur

Şəmkir rayonunun Şəmkir-Zəyəm-Düyərli-Şiştəpə-Bayramlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Prezidentin sərəncamına uyğun olaraq yenidənqurma işləri aparılır.



Hazırda avtomobil yolu 3 istiqamət üzrə əsaslı şəkildə yenidən qurulur. Bu, 20 kilometr uzunluğa malik yerli əhəmiyyətli Şəmkir-Zəyəm-Düyərli, həmçinin 7,9 kilometrlik Zəyəm-Şiştəpə və 5 kilometrlik Bayramlı avtomobil yollarıdır.

Şəmkir-Zəyəm-Düyərli-Şiştəpə-Bayramlı avtomobil yolu üzərindəki Zəyəm qəsəbəsində 1,3 kilometr uzunluğunda yeni piyada səkiləri inşa edilir, kənarlarına səki daşları düzülür.

Layihə üzrə sözügedən hissədə - Qanlı Qobu çayı üzərində 36,3 metrlik 2 aşırımlı və Cəyirçay üzərindəki 54,3 metrlik 3 aşırımlı körpülərin əsaslı şəkildə təmiri də nəzərdə tutulub.

Analoji işlər yolun IV texniki dərəcəli 7,9 kilometrlik Zəyəm-Şiştəpə və 5 kilometrlik Bayramlı hissələrində də aparılır. Belə ki, mövcud örtük mexanizmlə sökülüb, yolun normativ eninin alınması və deformasiyaya uğramış torpaq yatağının qazılmış hissələrinin doldurulması üçün xüsusi qrup qrunt tökülərək yayılıb və kipləşdirilib, yeni yol yatağı inşa edilib.

Tikinti işlərinin sonuncu mərhələsində 14 avtobus dayanacağı inşa ediləcək, hərəkətin normal təşkili üçün yollar boyu 158 yol nişanı, 1440 siqnal dirəkləri, həmçinin 66 kilometr göstəricisi quraşdırılacaq, yolun üfüqi nişanlanma xətləri çəkiləcək.

Bayramlı avtomobil yollarının yenidən qurulması ilə 85 min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsinin nəqliyyat əlaqəsi yaxşılaşacaq, vətəndaşlar rayon mərkəzinə və qonşu rayonlara rahat çıxış əldə edəcək, yük və sərnişin daşınması xeyli asanlaşacaq.

# Aqrar islahatlar İmişlinin imkanlarını artırır



**Məlum olduğu kimi, Prezident İlham Əliyevin yanında sosial-iqtisadi məsələlərlə bağlı keçirilmiş müşavirədə ilin 6 ayının yekunları ətraflı təhlil edilmiş, 2019-cu il üçün nəzərdə tutulan vəzifələrin uğurla icra olunması vurğulanmışdır.**

Qeyd edilmişdir ki, 6 ay ərzində ölkə iqtisadiyyatı 2,4, qeyri-neft sektoru 3,2 faiz artmışdır. Qeyri-neft sənayesində qazanılan nəticələr xüsusilə sevindiricidir. Burada artım 15,7 faiz olmuşdur.

Ölkə iqtisadiyyatının dinamik inkişafına İmişli rayonu da sanballı pay verir. 6 ayın yekunları ilə bağlı Heydər Əliyev Mərkəzində keçirilən yığıncaqda bu barədə ətraflı danışılmışdır. Yığıncaqda rayon icra hakimiyyətinin başçısı Vilyam Hacıyev 2019-cu ilin birinci yarısında sosial-iqtisadi inkişafın nəticələrini təhlil etmiş, qarşıda duran təsərrüfat, tikinti, abadlıq, quruculuq işlərini davam etdirmək zərurətini vurğulamış, bütövlükdə ilin yüksək nailiyyətlərlə başa vurulacağını diqqətə çatdırmışdır.

Ötən yarım il ərzində rayon iqtisadiyyatının əsas sahələri üzrə 136 milyon 860,4 min manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 73,6 milyon manatlıq çoxdur.

İstehsal olunan sənaye məhsullarının 95,3 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. Mədənçıxarma sənayesi ümumi məhsulun 3,6, emal sənayesi 91,6, elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi 4,8 faizini təşkil etmişdir.

Ölkədə aparılan aqrar islahatların uğurla həyata keçirilməsi İmişli rayonunda da kənd təsərrüfatının sürətli inkişafını təmin edir. Son illər rayonun təsərrüfatlarında pambıq, taxıl, barama, şəkər çuğunduru, heyvandarlıq məhsulları istehsalındakı artım diqqət çəkir. Prezident İlham Əliyevin ənənəvi kənd təsərrüfatı sahəsi olan pambıqçılığı inkişaf etdirmək barədə verdiyi tapşırıq və tövsiyələri fermerlər fəaliyyət proqramı kimi qəbul etmişlər. Bu il rayonun təsərrüfatlarında 7492,3 hektar sahədə pambıq əkilmişdir. Tarlaların becərilməsində aqrotexniki tələblərə ciddi əməl olunur. Hazırda becərmə işləri, suvarma və zərərvericilərə qarşı kimyəvi mübarizə tədbirləri davam edir. Məqsəd tarlalarda bol məhsul yetişdirmək, yüksək məhsuldarlığa nail olmaqdır.

Rayonun təsərrüfatlarında cari ilin məhsulu üçün 19037,5 hektar sahədə taxıl əkilmişdir. Bunun 6,322 hektarını arpa, 12715,5 hektarını buğda sahələri təşkil etmişdir. Zəmilərdə yetişdirilmiş bol məhsul itkisiz yığılıb tədarük edilmişdir.

Kənd təsərrüfatında gəlirli sahə sayılan baramaçılığın inkişafına da rayonda böyük önəm verilir. İpəkqurdlarının bəslənilməsində etibarlı yem bazası yaradılması üçün zəruri tədbirlər görülür, çəkil bağlarının sahəsi ildən-ilə genişləndirilir. Bunun nəticəsidir ki, cari il rayonda 9551 kiloqram barama istehsal olunmuşdur.

İndi kəndlərdə təsərrüfat işlərinin qızğın çağıdır. Meyvə, tərəvəz, bostan məhsulları yığılır. İlin bütün fəsillərində əhalini təzə tərəvəz məhsulları ilə təmin etmək üçün yaradılmış müasir istixana təsərrüfatları səmərəli fəaliyyət göstərir.

"Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq, İmişli rayonunun inzibati ərazisində yerləşən qış otlaq sahələrindən 10211 hektar torpaq sahəsinin Nazirlər Kabinetinin müvafiq qərarı ilə təyinatı dəyişdirilərək əkin dövriyyəsinə cəlb edilmişdir. Daha 6000 hektar qış otlaq sahəsinin də təyinatının dəyişdirilməsi üçün müvafiq sənədləşmə işləri aparılır.

İqtisadiyyatın dinamik inkişafı sosialyönümlü layihələrin uğurla reallaşdırılmasına geniş imkanlar açır. Həmin imkanlar sayəsində Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən İmişli şəhərində 6 mərtəbəli 54 mənzilli ictimai yaşayış binası inşa olunmuşdur. Şəhər əhalisinin mənzil şəraitinin yaxşılaşdırılması üçün isə 48 mənzilli binanın tikintisinə başlanmışdır. Ötən 6 ay ərzində 772-si daimi olmaqla 1501 iş yeri açılmış, gəlirləri ehtiyac meyarından aşağı olan 455 ailəyə ünvanlı sosial yardım təyin edilmişdir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Koreyanın aqrar təcrübəsi öyrənilir

Koreya Regionların İnkişafı İnstitutu və Kooperativ İnkişaf İnstitutunun nümayəndə heyəti Azərbaycana səfərə gəlib. Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) dəvəti ilə ölkəmizdə səfərdə olan qonaqlar Aqrar Tədarük və Təchizat ASC-də olub, qurumun rəhbər şəxsləri ilə görüşüblər.



Görüşdə Azərbaycan və Koreya arasında müxtəlif sahələrdə ikitərəfli münasibətlərin mövcud vəziyyətindən, o cümlədən aqrar sahədəki əməkdaşlıqdan məmnunluq ifadə edilib, Aqrar Tədarük və Təchizat ASC ilə Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi, eləcə də bu sahədə ixtisaslaşmış qurumlar arasında gələcək əməkdaşlığın perspektivləri müzakirə olunub.

Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən görüşdə Azərbaycanın tədarük və təchizat sisteminin daha da təkmilləşdirilməsi sahəsində Koreya təcrübəsinin öyrənilməsi və tətbiqi müzakirə edilib.

Aqrar Tədarük və Təchizat ASC-nin idarə heyətinin sədri Leyla Məmmədova Koreya nümayəndə heyəti ilə keçirilən görüşün ölkəmizdə aqrar sahənin inkişafında müstəsna rolunun olacağını bildirib: "Koreya ilə Azərbaycan arasında dostluq münasibətləri, müxtəlif sahələr üzrə əməkdaşlığımız mövcuddur. Koreyanın aqrar sahədə zəngin təcrübəsi var, biz bu təcrübənin öyrənilməsində və ölkəmizdə tətbiqində maraqlıyıq. Bunun üçün dost ölkənin müvafiq qurumları ilə davamlı görüşlər keçiririk. Aqrar sahədə fəaliyyət göstərən fermerlərdən ibarət kooperativlərin yaradılmasında Koreyanın zəngin təcrübəsindən yararlanmaq Azərbaycanın bölgələrində kənd təsərrüfatının inkişafı, fermerlərin bu sahədə təşkilatlanması istiqamətində görülən işlərin daha da sürətlənməsinə və genişlənməsinə təkan verəcək".

# Xəzərin səfalı qoynu, qızıl qumlu sahillərin yolu yenidən insanların üzünə açılır

## Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə ictimai çimərliklərin yaradılması davam edir

Yurdumuzun hər tərəfində təbiət gözəldir. Dağlar, meşələr, səfalı su mənbələri insanlara həm sağlamlıq bəxş edir, həm də mənalı istirahət üçün imkan yaradır. Dəniz də xalqımıza təbiətin ən böyük bəxşişlərindən biridir.










Paytaxt sakinləri dincəlmək, güc toplamaq, sağlamlığını bərpa etmək üçün həmişə Xəzərin qızıl qumlu sahillərinə can atırlar. Buraya yaxın-uzaq yerlərdən gələnlər də olur və indi, turizmin getdikcə inkişaf etdiyi bir dövrdə onların sayı getdikcə artmaqdadır.

Bakılıların və şəhərin çoxsaylı qonaqlarının Xəzərin səfasından yetərincə bəhrələnməsi üçün paytaxtda ictimai çimərliklər yaradılır. Gizli deyil ki, son illərdə Xəzərin sahilində bir sıra özəl istirahət mərkəzlərinin, pullu çimərliklərin fəaliyyət göstərməsi insanların təbiətlə təmasını müəyyən dərəcədə məhdudlaşdırmış, Xəzəri onların bir çoxu üçün az qala əlçatmaz etmişdi. Bakıda ictimai çimərliklərin yaradılması bu sahədə olan çətinliyi aradan qaldırır. Təşəbbüsün müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi Leyla xanım Əliyevadır.

Bakının dənizkənarı ərazilərində mövcud özəl istirahət mərkəzləri və pullu çimərliklərə alternativ olan ictimai çimərliklər artıq reallığa çevrilib. Belə ki, bu cür ilk çimərlik Səbail rayonunda, Şıx çimərliyi ərazisində 6 hektar sahədə yaradılıb. Əvvəllər baxımsız vəziyyətdə olan həmin ərazi təmizlənib və abadlaşdırılıb, orada kölgəliklər, soyunub-geyinmə kabinələri, duş, sanitariya qovşağı və digər infrastruktur qurulub. Sahilə gələn yol asfaltlanıb. Ərazidə eləcə də avtomobillər üçün dayanacaq düzəldilib.

Ümumiyyətlə, Bakının dənizkənarı ərazilərində yeddi yerdə ictimai çimərliklərin yaradılması nəzərdə tutulub və bu iş davam edir. Şıxdakı ilk ictimai çimərlikdən sonra Buzovna və Görədil qəsəbələrində də çimərliklər yaradılaraq paytaxt sakinlərinin və qonaqların istifadəsinə verilib. Burada da dənizsevərlərin yaxşı istirahət etməsi üçün hər cür şərait yaradılıb.

Xatırladaq ki, hələ may ayının sonunda çimərlik mövsümünün açılışı ilə əlaqədar IDEA İctimai Birliyinin təşkilatçılığı ilə Novxanı çimərliyində təmizlik aksiyası keçirilmişdi. Bu cür tədbirlərin əsas məqsədi sahildə təmizliyə riayət olunmasını təbliğ etmək, ərazinin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq, diqqəti bir daha ətraf mühitin mühafizəsi uğrunda mübarizəyə cəlb etməkdir. "Sahillər təmiz qalsın!" şüarı ilə keçirilən həmin aksiya Xəzər dənizi sahillərində gənclərin kütləvi iştirakı ilə baş tutan 11-ci tədbir idi.

IDEA İctimai Birliyi yerli və beynəlxalq təşkilatlarla tərəfdaşlıq şəraitində Azərbaycanın və regionun su bioresurslarının qorunub saxlanılması məqsədi ilə Xəzərin, eləcə də Kür çayının və digər çayların sahillərində təmizlik aksiyaları keçirir. IDEA-nın təsisçisi və rəhbəri Leyla xanım Əliyevanın bu təşəbbüsü bütün insanlara, xüsusilə gənclərə ətraf mühitin daim təmiz olması kimi mühüm işdə fəal iştirak etməyə əslində bir çağırışdır.

Qeyd edildiyi kimi, bu günlərdə daha iki ictimai çimərliyin istifadəyə verilməsi Leyla Əliyevanın nəcib təşəbbüsünün uğurla həyata keçirildiyini təsdiqləyir. İnsanlar qızıl qumlu sahillərin, Xəzərin səfalı qoynunun onların üzünə açılmasından və yaradılan ictimai çimərliklərdə də girişin, eləcə də digər xidmətlərin pulsuz olmasından çox məmnundurlar.

***F.SADIQLI,***
***A.MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# "Bizim həyət" layihəsi uğurla davam edir

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən, təmirsiz həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir.







Avqustun 15-də "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib. Yenilənmiş həyət Binəqədi rayonu, Naxçıvani küçəsi 24, 24 "a", 26, 26 "a" ünvanlarında 2300 nəfər sakinin yaşadığı 4 doqquzmərtəbəli və 1 onmərtəbəli binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Layihə çərçivəsində abadlaşdırılan növbəti həyətdə də əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə ərazidə 1 ədəd minifutbol meydançası, şahmat meydançası, müxtəlif idman qurğuları və uşaqlar üçün oyun meydançası salınıb. Eyni zamanda, ərazidə 8 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunaraq onların istifadəsinə verilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ağac əkilib və 2 500 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Binəqədi rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan iyirmi doqquzuncu həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

***Y.MUSAYEVA,***
***"Azərbaycan"***

# Tarixi irsimizin Xanı...

*Əvvəli 1-ci səh.*

*Və bu quruculuq işləri özündən sonrakı varislərinə də genetik ötürüldü...*

*Babası Hacı Çələbi xanın ənənələrini davam etdirərək Şəkidə neçə-neçə saray, məscid, mədrəsə tikdirən Hüseyn xan Müştaq yazdığı poetik əsərlər kimi, tikdirdiyi binaların daş və kərpiclərinin, ağac və şəbəkələrinin rənginə, naxışına, ölçüsünə də həssaslıqla yanaşırdı. Şəki Xan sarayı da bunun ən möhtəşəm nümunələrindən biridir.*

*Və belə olmasaydı, haqqında danışdığımız sarayın bu gün UNESKO-nun Ümumdünya İrs Siyahısına salınması barədə qərar qəbul olunmazdı...*

### Hələliksə zaman tunelindəyik

Günlərin bir günü, Şəki xanı adlı sanlı bir ustanı yanına çağıraraq tapşırıq verir ki, ona elə bir saray ucaltsın ki, dünyada tayı-bərabəri olmasın. Vədə tamam olur və saray tikilib başa çatır. Qala divarları ilə əhatə olunmuş, həyətində ağlayan söyüdləri, hovuzu olan ikimərtəbəli geniş saraya gələn xan sanki əsrarəngiz bir diyara düşür. "Leyli və Məcnun", "Yeddi gözəl" əsərlərinin qəhrəmanları ilə qarşılaşır, irəlilədikcə döyüş və ov səhnələri bir-birini əvəz edir, yırtıcı heyvanlar nərildəyir, qırqovullar, tovuzquşular lələklərinin parlaqlığı, min rəngə çalması ilə öyünür.

Şan-şöhrətin, hakimiyyətin gəldi-gedərliyini, yalnız müdrikliyin daim var olmasını təlqin edən ibrətamiz mənzərələrlə, taxt-tacı çiyinlərində saxlayan iki nəhəng şirlə qarşılaşır. Onların ayaqlarının altında isə sürüşkən balıqlar var, yəni taxt-tacı igidlər, görkəmli dövlət adamları saxlayır, balıq isə işarə edir ki, öz gücünə çox güvənmək lazım deyil, düşüncə ilə idarəçilik vacibdir. Çünki bir zaman taxtdan sürüşüb yıxıla bilərsən. Bir az uzaqlaşdıqda isə ağzında gül olan qurdun quzu ilə bir yerdə otladığı möcüzəvi səhnə qarşısında mat qalır...

Saray əhlinin və kəndlilərin həyatı ilə tanış olur, bərq vuran şəbəkələrdən süzülən rəngarəng işıqlar qəlbində fərəh hissini coşdurur...

Bu möhtəşəmlik, əsrarəngizlikdən qürurlanan xan istəmir ki, ikinci belə bir saray ondan başqa kiminsə qisməti olsun. Elə buna görə də sarayı ucaldan ustanı yanına çağırıb ona belə bir sual verir, soruşur ki, bundan daha möhtəşəm bir saray tikə bilərsənmi? Ustanın düşünülməmiş "hə" cavabı isə xanın qəzəbinə düçar olmasına yetir...

Beləcə, Şəki xanlarının möhtəşəm sarayı dillərdə dastan olur, şəninə rəvayətlər qoşulur...

### "Bircə Şəki Xan sarayını dünyaya göstərmək bəs edərdi"

Şəkidə olmuş dekabrist A.Korniloviç Qubadan qardaşına məktub yazır. Məktubunda 1828-ci ilə kimi Şəki əyalətində hakim olduğunu qeyd edən A.Korniloviç Şəki Xan sarayını belə təsvir edirdi: "Nuxada, əsas şəhərdəki qalada onların indi iş yerinə çevrilmiş sarayını gördüm. Bir neçə pilləkən və hündür portik bağ salınmış geniş dördbucaqlı həyətə aparır: qeyri-adi simmetriya ilə düzülmüş on altı italyan qovağı bağı dörd xiyabana bölür. Bağın kənarlarında saray əyanları, xanın həyat yoldaşları, onların qulluqçuları və digər qulluqçuların yaşadığı fligel binalar yerləşir; onların arxasında bir yarım insan boyu hündürlüyündə terras, həmin terrasda iki böyük çinarla əhatə olunmuş üçfəvvarəli hovuz, hovuzun arxasında isə saray binası yerləşir. Saray tərk edilmiş olsa da, daxildən keçmişin saxlanılmış möhtəşəmliyi ilə görənləri valeh edir. Mən dar, qaranlıq, daş pilləkənlə keçərək bütün rəng çalarlarının əks olunduğu qəbul otağına keçdim, həmin otağın sağ və solunda divar yerinə qoz ağacı və kiçik rəngli şüşələrdən yığılmış ən incə naxışlarla bəzədilmiş pəncərəli otaqlar yerləşir. Otaqlar, divarlar və günbəz, yuxarıda dediyim kimi, rəngarəng şüşələrlə bəzədilmişdir: onları birləşdirən karnizdə rəsmlər vardır..."

Fransız yazıçısı Aleksandr Düma isə 1858-ci ildə Şəkidə olarkən yazırdı ki, "...Tanrı Nuxadakı heyranedici sarayı vandallardan qorusun".

Andrey Fadeyev, Arnold Zisserman Şəki Xan sarayını təsvir edir, Lev Tolstoy, Nikolay Rayevski, İlya Berezin, Elize Reklu və digər neçə tanınmış şəxs tikili haqqında ətraflı məlumat verirdilər.

"Əgər Azərbaycanın başqa qədim tikililəri olmasaydı, bircə Şəki Xan sarayını dünyaya göstərmək bəs edərdi" deyə dünya şöhrətli türk şairi Nazim Hikmət saraya baxdıqdan sonra heyranlıqla fikirlərini belə izhar etmişdi...

Bəli, tikildiyi gündən bu yana dünya bu saraydan danışırdı...

### Gələcək nəsillərə ötürülməsi vacib olan irs

Üzərindən əsrlər keçib, amma yenə də dünya Şəki Xan sarayının füsunkarlığının cazibəsindən çıxmayıb. Onun özündə əksini tapan inkişaf etmiş incəsənəti, poeziyanı, fəlsəfi yükü bir daha qiymətləndirib və gələcək nəsillərə ötürülməsi vacib irsi nümunə kimi dəyərləndirib.

Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında müzakirəyə çıxarılan nominasiyalardan biri Azərbaycanın təqdimatı - Şəki Xan sarayının və şəhərin tarixi mərkəzinin Ümumdünya İrs Siyahısına salınması ilə bağlı məsələ olub.

Nominasiya ilə bağlı ICOMOS-un (Abidələr və Tarixi Yerlərin Mühafizəsi üzrə Beynəlxalq Şura) hesabatı dinlənilib. Şəkinin tarixi, Xan sarayında aparılmış son bərpa işləri barədə məlumat verilib. Şəhərin tarixinin iki min ilə yaxın olduğu, qədim məhəllələrin 1790-cı ildə salındığı qeyd edilib. Müzakirə və çıxışların yekunu olaraq Şəki Xan sarayı ilə şəhərin tarixi mərkəzinin UNESKO-nun Ümumdünya İrs Siyahısına salınması barədə qərar qəbul edilib.

İndi qədim Şəki İçəri şəhər və Qobustandan sonra Azərbaycanın Ümumdünya İrs Siyahısına salınan üçüncü mədəni irs məkanıdır.

### Xalqla paylaşılan əlamətdar sevinc

Prezident İlham Əliyev bu əlamətdar hadisə ilə bağlı xalqa təbrik ünvanladı. Bildirdi ki, Azərbaycanın ən qədim şəhərlərindən olan Şəkinin tarixi hissəsi yüzillər boyu ölkəmizin mədəniyyət mərkəzlərindən biri kimi tanınmışdır. Unikal abidələrlə zəngin Şəki şəhərinin tarixi hissəsinin mühafizəsi və inkişafı daim dövlətin diqqətində saxlanılmışdır.

Son illər Azərbaycanın mədəni irsinin dünya səviyyəsində tanıdılması və qorunması istiqamətində çoxsaylı layihələr həyata keçirilmişdir. Qeyd edilməlidir ki, bu fəaliyyətlər beynəlxalq təşkilatlarla, xüsusən dünya mədəniyyəti, təhsili və elminə məsul olan UNESKO ilə sıx əməkdaşlıq şəraitində gerçəkləşdirilir. Təsadüfi deyil ki, "İçəri şəhər, Qız qalası və Şirvanşahlar Saray Kompleksi", "Qobustan Qaya Sənəti Mədəni Landşaftı" UNESKO-nun Ümumdünya İrs Siyahısında, həmçinin xalqımızın qeyri-maddi mədəni irsinin 13 nümunəsi UNESKO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısında yer alır. Bu hadisələr Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə verdiyi töhfənin beynəlxalq miqyasda bir daha etirafıdır.

Şəkinin tarixi mərkəzində keçmişimizi özündə təcəssüm etdirən



Şəki Xan sarayı, karvansaralar, məscid və minarələr, qədim körpülər, sənətkarlıq emalatxanaları və yaşayış evləri bu gündən etibarən təkcə xalqımızın deyil, bəşəriyyətin mədəni irsi hesab olunur.

Əldə olunmuş nailiyyətə görə Birinci vitse-prezident Mehriban Əliyeva da öz sevincini xalqla bölüşdü: "Azərbaycan xalqı milli mədəniyyətimizin, adət-ənənələrimizin, tarixi irsimizin təkrarolunmaz incilərini qoruyub saxlayaraq dünyada tanıdılması istiqamətində böyük nailiyyətlər əldə edib. Bu gün isə biz Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin UNESKO-nun Ümumdünya İrs Siyahısına salınmasını qeyd edirik. Bu tarixi hadisə münasibətilə bütün xalqımızı səmimi-qəlbdən təbrik edirəm!"

### Müstəsna xidmət

Xalqımız üçün böyük tarixi əhəmiyyətə malik bu qərarın verilməsi ölkə rəhbəri İlham Əliyevin birbaşa göstərişi ilə görülən bərpa işlərindən, Şəki ilə bağlı verdiyi çoxsaylı sərəncamlardan, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın müstəsna xidmətindən irəli gəlir. Hələ 2011-ci ildən başlayaraq Mehriban xanımın təşəbbüsü ilə "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun, şəhərin qədim tarixi hissəsinin UNESKO-nun Ümumdünya İrs Siyahısına salınması istiqamətində iş aparılır. "Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi də müvafiq istiqamətdə görülən işlərin daha bir müsbət nəticəsidir. Hələ bundan əvvəl UNESKO ilə əməkdaşlığın inkişafında və mədəni irsimizin qorunması və dünya miqyasında təbliğində müstəsna rolu olan Mehriban xanım Əliyevanın dəstəyi ilə Azərbaycanın muğam ifaçılığı, lavaş, dolma bişirmə və paylaşma ənənəsi, Lahıc misgərlik sənəti, aşıq sənəti, Novruz bayramı, xalça sənəti, tar ifaçılığı, kəlağayı sənəti UNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısında, həmçinin Çövkən - Qarabağ ənənəvi atüstü oyunu isə UNESKO-nun təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısında yer alıb. İçəri şəhər, Qobustan Ümumdünya irs siyahısına salınıb.

Görülən iş, illərlə sərf edilən əmək sayəsində addım-addım Azərbaycanın qədim və zəngin mədəniyyəti bəşəri irs nümunəsinə çevrilir. O gün də uzaqda deyil ki, tezliklə işğal edilən torpaqlarımız azad olunacaq və hər daşı, torpağı, zəngin mədəniyyətə malik Qarabağımız da bütövlükdə toxunulmaz və müqəddəs yer kimi bu siyahıda öz əksini tapacaq...

### Xan çinarların pıçıldadığı rəvayət

*XXİ əsr...*

*Texnologiyanın sürətli inkişafı, sivilizasiyalararası dialoqların baş tutduğu, dünyanın qloballaşdığı bir əyyam...*

*Məkan Şəki Xan sarayı...*

*Haradansa xanın səsi gəlir, məşhur bir ustanı yanına çağıraraq tapşırıq verir ki, ona elə bir saray ucaltsın ki, öz möhtəşəmliyi ilə dünyanı dilə gətirsin, görənləri əsirinə çevirsin, üzərindən qərinələr, əsrlər, minilliklər keçsə də, görənləri XVİİİ əsrin tilsiminə salsın...*

*Və üzərindən xeyli zaman ötdükdən sonra məlum olur ki, bəli, xan öz istəyinə nail olub və bu gün də Şəki Xan sarayı öz üslubu ilə dünyada təkrarolunmazdır, özünəməxsusdur...*

Belə olmasaydı, haqqında danışdığımız qədim sarayın UNESKO-nun Ümumdünya İrs Siyahısına salınması barədə qərar qəbul edilməzdi...

*Bu, Şəki Xan sarayı haqqında qədimliyi və müasirliyi özündə birləşdirən rəvayət idi...*

*Və bu gün sarayı ziyarət edənlərin hər birinin qulağında onun qarşısında əkilmiş yüz illik xan çinarların yarpaqlarının pıçıldadığı bir rəvayət...*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Ermənistan ordusunda fərarilik tüğyan edir

*Əvvəli 1-ci səh.*

Bunlardan biri də Füzuli rayonu istiqamətində düşmən tərəfindən fərarilik etmiş hərbi qulluqçu Kazaryan Aro Xaykoviçdir.

O, hərbi bölmələrimizin sayıqlığı nəticəsində saxlanılıb. İlkin dindirilmə nəticəsində düşmən hərbçisinin fərarilik etməsinə səbəb xidmət etdiyi hərbi hissədə hökm sürən özbaşınalıq, hərbi qulluqçulara qarşı dözülməz və qeyri-insani münasibət olduğu müəyyənləşib.

Erməni hərbi qulluqçu A.Kazaryanın uzun müddət ərzində komandirləri və digər hərbi qulluqçular tərəfindən dəfələrlə fiziki və mənəvi təzyiqlərə məruz qalması onun baş nahiyəsindəki hematomalardan və bədənindəki yaralardan da aydın görünür.

Dilicanda jurnalistlərlə söhbəti zamanı Ermənistanın müdafiə naziri David Tonoyan hələ istintaqın həyata keçirildiyini və hərbi qulluqçunun coğrafi baxımdan itdiyini hesab etdiyini bildirib. Deyib ki, hərbi qulluqçunun psixoloji problemlərinin olub-olmadığı barədə hələ danışa bilməz: "İş nəticəsində bu, aydın olacaq. Hamımız üçün kədərli hadisə olsa da, hesab edirəm ki, normal keçəcək".

Erməni hərbçinin fərariliyi və könüllü surətdə Azərbaycan Ordusuna təslim olması Ermənistan hakimiyyətində ciddi narahatlıq yaradıb. Xəbər yayıldıqdan sonra erməni KİV-in əksəriyyəti Azərbaycandan yayılan xəbərlərə istinad edərək, hərbçilərinin işgəncə görməsi səbəbi ilə fərarilik etdiyini bildirdilər. Yəni ilk başda həqiqəti gizlətmədilər. Bu cür xəbərlərin Ermənistanda ciddi narahatlıq yaratdığını görən Yerevan senzuranı işə salaraq fərarilik xəbərini korrektə etməyə başladı. Erməni xəbər portalları "işgəncə" sözünü "azıb" ifadəsi ilə dəyişməyə başladılar. Yəni guya həbrçiləri qəsdən təslim olmayıb, "yolu azaraq o tərəfə keçib".

Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal edilmiş yaşayış məntəqələrində yerləşdirilən düşmən ordusunun bölmələrində ağır xidmət şəraitindən, təhqirlərdən və fiziki işgəncələrdən bezərək xidmət yerini özbaşına tərk edənlərin sayı artmaqda davam edir. Bir neçə ay bundan əvvəl beşinci dağ atıcı alayının hərbi qulluqçusu Mesrop Vartanyan döyüş postunda növbədə olarkən silahını ataraq xidmət yerini özbaşına tərk etmişdi. Hərbi hissə tərəfindən gənc əsgərin axtarışı və xidmət yerinə qaytarılması istiqamətində işlər aparılsa da, əsgərin valideynləri övladının qaçma səbəblərinin hüquq mühafizə orqanları tərəfindən obyektiv araşdırılmasını tələb edirdilər.

Belə görünür ki, Paşinyanın dönəmində orduda vəziyyət daha da pisləşib. Erməni ekspert Janna Aleksanyan bu xüsusda çox maraqlı açıqlamalar verib: "Erməni əsgərləri cəbhə xəttində deyil, öz komandirlərinin və cəbhə yoldaşlarının əlində ölməyə davam edir. Ermənistan ordusunun qeyri-döyüş şəraitində verdiyi itkilərin böyük əksəriyyəti gərginliyin artdığı və "inqilab"dan sonrakı dövrə təsadüf edib. Ölüm hallarının hamısı intihar kimi qeydə alınıb. İnsanlar inqilaba dəstək oldu, onda iştirak etdi və indi bütün xalq öz problemlərinin, xüsusən də ordu ilə bağlı olan problemlərinin həllini tələb etmək haqqına sahibdir. Əgər belə hallar hələ də mövcuddursa, müdafiə sistemində hansı dəyişikliklərin baş verdiyini deyə bilmərəm".

Janna Aleksanyan Gevork Aroyan hadisəsini xatırladaraq əsgərin alçaldılmalara məruz qaldığını bildirib: "Valideynləri onunla görüşəndə gözünün altında yaralar olub. Əgər əsgər yaralarla xidmət aparırsa və heç kim bunun fərqinə varmırsa, o hərbi hissənin komandir heyəti haradadır? Müdafiə naziri onları yanına çağırıb? Onlardan nə baş verdiyini, komandir heyətində niyə heç kimin bunun fərqinə varmadığını soruşub? Ən qəribəsi isə bundadır ki, belə bir hadisədən sonra müdafiə naziri David Tonoyanın ictimaiyyətə açıqlamasını görmədik. Müdafiə Nazirliyinə müraciət edən valideynlər də heç bir cavab ala bilmir".

Bütün bunlar erməni ordusunda qanunsuzluqları göstərən çoxsaylı faktların cüzi bir hissəsidir. Ermənilər özləri də etiraf edirlər ki, dağılmaqda olan belə ordu ilə nəinki Azərbaycan ərazilərinin işğalını davam etdirmək, heç Ermənistanın özünü qorumaq belə mümkün deyil.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# “Təmiz Şəhər” Açıq Səhmdar Cəmiyyəti
## *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

“VIII Beynəlxalq Tullantıdan Sənətə” sərgisinin təşkili işlərinin satın alınması

Tender iştirakçıları https://www.etender.gov.az dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzalar vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.Təkliflərin qiymətləndirilməsində analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti, aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri potensial meyarlara üstünlük veriləcəkdir.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı - 200 manat.**

**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**

**İqtisadi təsnifat kodu: 142340**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbarı ödənişlərə dair vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla ) 03 sentyabr 2019-cu il saat 16:00-a qədər, tender təklifi və bank təminatını isə 12 sentyabr 2019-cu il saat 16:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri 13 sentyabr 2019-cu il saat 16:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

# Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi Beyləqan rayonunun Dünyamalılar kəndində 624 şagird yerlik tam orta məktəbin tikintisinin satın alınması üzrə
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini imzalanmış, möhürlənmiş ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, iddiaçıların ixtisas göstəriciləri, analoji işlərdə təcrübəsi və maliyyə vəziyyəti.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə 500 (beş yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 ünvanından (əlaqələndirici şəxs: Sirac Əliyev, tel: (+99412) 465-73-48 (daxili 110)) ala bilərlər.

**Təşkilat: Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. IBAZAZ2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (rəsmi blanklarda və möhürlə təsdiq olunmuş qaydada) təqdim etməlidirlər:
- *tenderdə iştirak üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin 1-ci əlavəsi kimi tender təklifi qiymətinin 1 faizi həcmində tender təklifinin təminatı-bank zəmanəti (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *iddiaçılar haqqında tələb olunan sənədlər;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *analoji işlərdə təcrübəsi, maliyyə, texniki və kadr imkanları barədə rəsmi məlumatlar.*

İddiaçılar 1-ci, 2-ci və 5-ci bəndlərdə qeyd olunan sənədləri 19 sentyabr 2019-cu il saat 17:00-a qədər, tender təklifini və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 26 sentyabr 2019-cu il saat 17:00-a qədər yuxarıda göstərilən ünvana təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 27 sentyabr 2019-cu il saat 15:00-da Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 15 avqust 2019-cu il tarixli nömrəsində dərc edilmiş Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin Beyləqan rayonunun Dünyamalılar kəndində 624 şagird yerlik yeni ümumtəhsil məktəb binasının tikintisinin satın alınması ilə əlaqədər açıq tender elanı ləğv olunur.

***Tender komissiyası***

# Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu Azərbaycan Respublikası Dövlət Sosial Sığorta Şəhadətnamələrinin satın alınması ilə əlaqədar
## *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Tender 1 LOT üzrə keçirilir:**

**LOT 1:** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu Azərbaycan Respublikası Dövlət Sosial Sığorta Şəhadətnamələrinin satın alınması

**İştirak haqqı: LOT 1 üzrə 200,00 (iki yüz) manat**
**VÖEN: (DSMF) 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: 142319**
**Büdcə səviyyəsinin kodu: 4**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **11.09.2019-cu il saat 18:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **17.09.2019-cu il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **17.09.2019-cu il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

# Gəncə Regional Mədəniyyət İdarəsi 2019-cu il üçün
## *kotirovka sorğusu elan edir*

1. Odun yanacağının satın alınması.
2. Mətbəə xərclərinin satın alınması.
3. Kommunal və kommunikasiya xidmətləri ilə bağlı digər xərclərin satın alınması.

**Əlaqələndirici şəxs: B.Y.Muradov**
**Tel.: (022) 266-29-51**
**VÖEN: 2300144211**
**Ünvan: Gəncə şəhəri, Əttarlar küçəsi, Məhsəti Gəncəvi Mərkəzi**

***Tender komissiyası***

# Moskva elit mənzillərin qiymət artımına görə dünya reytinqində 3-cü yerdədir



“Knight Frank” beynəlxalq konsaltinq şirkətinin açıqlamasına görə, Moskva şəhəri elit mənzillərin qiymət artımına görə dünya reytinqində 3-cü yeri tutur.

Rusiyanın TASS informasiya agentliyi xəbər verir ki, Rusiyanın paytaxt şəhəri illik 9,5 faiz artımla 46 şəhərin elit mənzillərinin qiymətləri ilə bağlı yalnız Berlin və Frankfurt şəhərlərindən geri qalır.

Bununla yanaşı, 2019-cü ilin ilk rübü ilə müqayisədə Moskvada elit mənzillərin qiymətində 2,5 faiz azalma müşahidə olunub.

# Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatı və yerli orqanları tərəfindən istifadə ediləcək avadanlıqların satın alınması ilə əlaqədar
## *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Tender 1 LOT üzrə keçirilir:**

**- LOT 1:** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatı və yerli orqanları tərəfindən istifadə ediləcək avadanlıqlarin satın alınması.

**İştirak haqqı: LOT 1 üzrə 300,00 (üç yüz) manat**
**VÖEN: (DSMF) 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: 142319**
**Büdcə səviyyəsinin kodu : 4**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **12.09.2019-cu il saat 18:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **18.09.2019-cu il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **18.09.2019-cu il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Respublikası Təhsil nazirinin müavini Firudin Qurbanova qayınanası

**RAZİYƏXANIM QULİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Respublikası Fövqəladə Hallar nazirinin müavini Orucəli Hacıyevə əzizi

**HƏŞİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimova əzizi

**GÖVHƏR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının üzvləri Bakı Apelyasiya Məhkəməsinin sabiq hakimi

**MİRPAŞA HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Şəhər Məhkəməsinin kollektivi məhkəmənin işçisi, ədliyyə veteranı

**ƏHMƏD HÜMBƏT OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Təhsil nazirinin müavini Firudin Qurbanova qayınanası

**RAZİYƏXANIM QULİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Fövqəladə Hallar nazirinin müavini Orucəli Hacıyevə əzizi

**HƏŞİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İsmayıllıdan Mirdaməd Sadıqov Azərbaycan Respublikası Təhsil nazirinin müavini Firudin Qurbanova qayınanası

**RAZİYƏXANIM QULİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İsmayıllıdan Mirdaməd Sadıqov Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimova, Etibar, Əfqan və Əfrəsiyab Əliyevlərə əzizləri

**GÖVHƏR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Mühəndislik Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Respublikası Təhsil nazirinin müavini Firudin Qurbanova qayınanası

**RAZİYƏXANIM QULİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin əməkdaşı

**KAMİL MƏCİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin rəhbərliyi və kolllektivi şöbənin əməkdaşı

**KAMİL MƏCİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov Təhsil nazirinin müavini Firudin Qurbanova əzizi

**RAZİYƏXANIM QULİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi Təhsil nazirinin müavini Firudin Qurbanova qayınanası

**RAZİYƏXANIM QULİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimova əzizi

**GÖVHƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Cəlilabad rayonundan Namiq Zeynalov Azərbaycan Respublikası Təhsil nazirinin müavini Firudin Qurbanova qayınanası

**RAZİYƏXANIM QULİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 20 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Cəvahirli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən ordumuzun mövqeləri atəşə tutulub.

*Qubaxanım İxtiyar qızı Süleymanovaya məxsus Bakı şəhəri, Ağa Neymətulla küçəsi, 49b, mənzil 6 ünvanına dair verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.*

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9003
Sifariş 2684
Qiyməti 40 qəpik